Günəş Şərqdən doğur!

❒ № 108 (5389), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 22 iyun 2021-ci il (çərşənbə axşamı)



## Bir nəfər vəfat edib

Azərbaycanda son sutkada koronavirusa 28 nəfər yoluxub

(Səh.5)



## Pakistanla hərbi əməkdaşlıq genişlənəcək

Prezident: "Birgə hərbi təlim və başqa təşəbbüslər planlaşdırmalıyıq"

"İkinci Qarabağ müharibəsində Pakistanın Azərbaycanı tam dəstəkləməsi qardaşlıq əlaqələrimizin həqiqi nümayişidir".

(səh.2)

## Səməd Seyidov AŞPA-nı sərt tənqid edib



"Avropa Şurasının fundamental hüquqlarından olan söz azadlığından birtərəfli məlumatların yayılması üçün istifadə edirlər".

(səh.2)

# Ərdoğan zaman söylədi



## "Qarabağın ən geci bir il ərzində tamamən ayağa qalxacağına şahid olacağıq"

(səh.3)

# Sonuncu şans...

## Erməni xalqı sülhə və sabitliyə səs verdi



(səh.5)

## Türkiyə Azərbaycanda PUA istehsalının təşkili imkanlarını araşdırır

(səh.2)

## "Sənət daha dərin duyğulardan güc alır"

Aqşin Yenisey: "Biz heç vaxt erməni ilə müharibədən böyük ədəbiyyat yaratmayacağıq"

(səh.8)

## "Oxumaq heç vaxt gec deyil"

Aynur İbrahimovanın təşəbbüsü ilə təhsildən kənar qalan ailəli xanımlar ali məktəblərə hazırlanır

(səh.9)

## Mövcud rejim dəyişmədi

Rəisinin seçilməsindən ABŞ və Qərb narazıdır

(səh.10)

# Pakistanla hərbi əməkdaşlıq genişlənəcək

## Prezident: “Birgə hərbi təlim və başqa təşəbbüslər planlaşdırmalıyıq”



**“İkinci Qarabağ müharibəsində Pakistanın Azərbaycanı tam dəstəkləməsi qardaşlıq əlaqələrimizin həqiqi nümayişidir”.**

Bu fikirləri Prezident İlham Əliyev Pakistan İslam Respublikasının Quru Qoşunları komandanı ordu generalı Qamar Caved Bacvanı qəbul edərkən söyləyib. Dövlət başçısı xüsusilə İkinci Qarabağ müharibəsində Pakistanın Azərbaycana göstərdiyi çox fəal dəstək mövqeyinə görə minnətdarlığını bildirib: “Müharibənin ilk günlərindən ölkənizin ali rəhbərliyi - Prezident və Baş nazir ərazi bütövlüyümüzün bərpasında Azərbaycana tam dəstəklərini ifadə etdilər. Bu, bizim əməkdaşlığımızın çox mühüm elementidir”.

**“Şuşadan verilən açıqlamalar bütün dünyaya səs salacaq”**

**Dövlət başçısı qeyd edib ki, Pakistan Azərbaycan torpaqlarının işğalı səbəbindən Ermənistanı tanımayan və onunla diplomatik əlaqələr qurmayan az sayda ölkədən biridir:** “Bu, ölkələrimiz arasında qardaşlıq əlaqələrimizin daha bir nümayişidir. Azərbaycan xalqı bunu bilir. “Biz hər zaman Azərbaycanı kimin dəstəklədiyi və müharibə zamanı bizi kimin dəstəklədiyi barədə mesaj veririk. Ona görə də bütün şəhər və ölkə boyu Pakistan bayraqlarının olması təəccüblü deyil, bunun nəticəsində ölkələrimiz və xalqlarımız arasındakı qardaşlıq güclənəcək. Bizim açıq mövqeyimiz dəfələrlə nümayiş etdirilib. Bu mövqe ədalət, beynəlxalq hüquq və qardaşlıq əlaqələrimizə əsaslanır. Biz bütün məsələlərdə qardaşlarımızı dəstəkləməliyik”.

**“Pakistanın müdafiə sənayesi məhsullarına çıxışımız olduğuna görə məmnunuq”**

**Prezident vurğulayıb ki, qarşıdakı illərdə Pakistanla hərbi əməkdaşlığı genişləndirməliyik:** “Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi beynəlxalq hüquq və ədaləti fəal şəkildə müdafiə edir. Mən Bakıda keçirilən sammitdə şəxsən iştirak etdiyinə və Qoşulmama Hərəkatı çərçivəsində bizim təşəbbüsləri dəstəklədiyinə görə Pakistanın Prezidentinə çox minnətdaram. Əməkdaşlığımız uğurla inkişaf edir. Azərbaycan və Pakistan müdafiə və müdafiə sənayesi sahələrində çox yüksək səviyyəli tərəfdaşlıq nümayiş etdirir. Pakistanın müdafiə sənayesi məhsullarına çıxışımız olduğuna görə məmnunuq. Biz bu məhsulları alırıq, bu da bizim hərbi potensialımızı gücləndirir. Düşünürəm ki, qarşıdakı illərdə biz hərbi əməkdaşlığımızı genişləndirməli və tərəfdaşlığımızı gücləndirmək üçün birgə hərbi təlim və başqa təşəbbüslər planlaşdırmalıyıq”.

**“Azərbaycanın ərazilərini azad etməsi hər bir pakistanlı üçün möhtəşəm hadisədir”**

**General Qamar Caved Bacvan bildirib ki, Azərbaycanın Ermənistanı məğlub edərək ərazilərini geri qaytarması hər bir pakistanlı üçün möhtəşəm hadisədir:** “Ölkənizə qarşı qərəzliliyə baxmayaraq, ərazi bütövlüyünüzü bərpa etdiniz. 1993-cü ildə dostlarımdan biri Azərbaycana gəlmişdi və o zaman çox məyus olmuşdu. O, ötən il buraya səfər etdi və heyran oldu, dedi ki, görkəmli şəxsiyyət olan atanızın və Sizin rəhbərliyinizlə Azərbaycan son 30 ildə inkişaf edib”.

**“Türkiyə bizim də qəlbimizə çox yaxındır”**

**Pakistanlı general deyib ki, Azərbaycanla Pakistanın ortaq tərəfdaşlarından biri də Türkiyədir:** “Sizin “bir millət, iki dövlət” dediyiniz kimi, Türkiyə bizim də qəlbimizə çox yaxındır. Dünyada ən yaxın əlaqələrimiz Türkiyə ilədir. Hər üç ölkə arasında sıx əlaqələrin olması əməkdaşlığımız üçün hədsiz imkanlar açır. Bizim Azərbaycanda nəzərdən keçirəcəyimiz bir çox imkanlar var, iş adamlarımız buraya səfər edə bilərlər”.

İsmayıl

## Prezident ipoteka ilə bağlı qanuna dəyişikliyi təsdiqlədi

**Prezident İlham Əliyev ”İpoteka haqqında” qanunda dəyişiklik edilməsi barədə qanunu təsdiqləyib.**

Dəyişikliklə qanuna yeni 43.7-1-ci maddə əlavə olunub.

Həmin maddəyə görə, təkrar hərrac baş tutmamış elan edildikdə, ipoteka predmetinin ipoteka saxlayan tərəfindən əldə olunması barədə ipoteka saxlayan və hərracın təşkilatçısı 30 təqvim günü ərzində müqavilə qüvvəsinə malik olan protokol imzalayacaqlar.

## Türkiyə Azərbaycanda PUA istehsalının təşkili imkanlarını araşdırır



**“Bəzi məsələlərdə təkrarçılıq etmək yerinə, yatıracağımız investisiya həm Türkiyə, həm də Azərbaycana faydalı olmalıdır”.**

APA-nın ”Hürriyət” qəzetinə istinadən verdiyi xəbərə görə, bunu Türkiyənin Müdafiə Sənayesi İdarəsinin direktoru İsmayıl Dəmir Antalya Diplomatiya Forumu çərçivəsində jurnalistlərə açıqlamasında deyib.

O bildirib ki, Türkiyə və Azərbaycan müdafiə sənayesi sahəsində hər iki ölkəni gücləndirəcək əməkdaşlığa başlamalıdır.

”Azərbaycanla bağlı ”Tək millət, iki dövlət” deyirik. Dediyimiz kimi də hərəkət etməli olduğumuzu düşünürəm. Hesab edirəm ki, istənilən investisiya bir-birimizin çatışmazlığını aradan qaldırmalıdır. Azərbaycanda PUA istehsal edən müəssisə qurmaq nə qədər səmərəli olar? Bunu edək və ya başqa bir variant düşünək? İki ölkənin bir-birini tamamlayacağı və gücləndirəcəyi bir əməkdaşlığa getməsini düşünürük”, - deyə İ. Dəmir vurğulayıb.

## Səməd Seyidov AŞPA-nı sərt tənqid edib



**”Avropa Şurasının fundamental hüquqlarından olan söz azadlığından birtərəfli məlumatların yayılması üçün istifadə edirlər”.**

”Report”un yerli bürosu xəbər verir ki, bunu Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı (AŞPA) nümayəndə heyətinin rəhbəri, deputat Səməd Seyidov qurumun bu gün öz işinə başlayan yay sessiyasında çıxışı zamanı bildirib.

Onun sözlərinə görə, Büronun fəaliyyətinə həsr olunmuş hesabatda AŞPA-nın sonuncu sessiyasından etibarən baş verən ən əlamətdar hadisələr yer almalıdır: ”Bununla belə, iyunun 12-də Azərbaycanla Ermənistan arasında baş verən razılaşma haqqında burada heç bir məlumat verilmir. Bu razılaşma nəticəsində Azərbaycanın Ağdam rayonundakı mina sahələrinin xəritəsi Ermənistan tərəfindən Azərbaycana təqdim edilib və bunun əvəzində bir sıra erməni əsir azad edilib. Lakin bunun əksinə olaraq, əsirlərə qarşı humanitar hüquqa zidd şəkildə rəftar olunması haqqında yoxlanılmamış, yalan məlumatlar verilir. Yəni birtərəfli məlumatlara rast gəlirik. Fundamental hüquqlarımızdan olan söz azadlığından birtərəfli və yoxlanılmamış məlumatların yayılması üçün istifadə edilməməlidir. Məsələlər tam şəkildə öyrənilməlidir. İki ölkə arasında barışığın yaranmasına çalışılmalıdır”.

# Ən böyük məsuliyyəti ABŞ daşıyır



## Paşinyanın təqdim etdiyi mina xəritəsinə tam etibar etmək olmaz

**Ermənistan tərəfindən Azərbaycana təhvil verilən Ağdamın minalanmış ərazilərinin xəritəsinin bir qisminin 50, digər qisminin isə 20-30 faiz doğru çıxması ilə bağlı sosial şəbəkələrdə məlumatlar yayılıb. Lakin Müdafiə Nazirliyinin rəsmisi polkovnik-leytenant Anar Eyvazov məsələyə aydınlıq gətirərək vurğulayıb ki, hazırda mütəxəssislər xəritələrin tam təhlilini aparır.**

Eyni zamanda bu iş praktiki olaraq ərazidə də həyata keçirilir. Ona görə də indi hər hansı rəqəmi səsləndirmək, xəritələrin tərtibatının standartlara nə dərəcədə uyğun olub-olmaması barədə fikir söyləmək bir qədər tezdir: ”Bir də söhbət təkcə Ağdamın minalanmış ərazilərinin xəritəsindən deyil, ümumiyyətlə, indiyədək əldə etdiyimiz mina xəritələrinin təhlilinin aparılmasından gedir. Bir daha təkrar edim ki, bu istiqamətdə əldə olunan nəticələr zamanı çatdıqca mütəmadi ictimailəşdiriləcək”.

**Vəhdət Partiyasının sədr müavini Vasif Əfəndiyev ”Şərq”ə bildirib ki, minalanmış xəritələrin Azərbaycana təhvil verilməsi ilə bağlı iddialar əsassız deyil. Səbəbi odur ki, ərazilərimizi minalayan qruplar bu işi kor-koranə, bir çox hallarda isə xəritəsiz aparıblar:** ”Hətta 44 günlük müharibə dövründə Ermənistan silahlı qüvvələrinin özlərinin basdırdıqları minalanmış sahələrin qurbanına çevrilməsi faktları var. Bu vəziyyətdə Nikol Paşinyanın təqdim etdiyi xəritəyə tam etibar etmək olmaz. Lakin bu məsələdə qarant duran ölkələrin üzərinə də müəyyən məsuliyyət qoyulmalıdır. Hesab edirəm ki, həmin ölkələr, xüsusən ABŞ və Avropa strukturlarının nümayəndələri Ermənistanla birlikdə ərazilərin minalardan təmizlənməsi prosesində iştirak etməlidirlər. Bunu təmin edə bilsək, həm qarant ölkələr, həm də Ermənistanın özü maksimum dəqiq koordinantlar verməkdə maraqlı olacaqlar”.

İsmayıl Qocayev

# Şuşa Bəyannaməsi yeni reallıqlar yaradıb

## "Orta Asiyanın ən güclü dövləti - Qazaxıstan da bu prosesdə aktiv rol almaq istəyir"



Dünən Prezident İlham Əliyev Qazaxıstanın Baş nazirinin müavini, Xarici işlər naziri Muxtar Tleuberdini qəbul edib. Görüşdə ölkələrimiz arasında dostluq və qardaşlıq əlaqələrinə diqqət çəkilərək, prezidentlər arasında daimi təmasların əməkdaşlığımızın inkişafı üçün yaxşı əsas yaratdığı vurğulanıb. Söhbət zamanı iqtisadi əlaqələrə toxunularaq, investisiya layihələrinin və nəqliyyat dəhlizlərinin inkişafının önəmi qeyd olunub.

Qarşıdakı illərdə yükdaşımanın həcminin artırılmasının və tariflərin unifikasiyası üçün daha əlverişli şəraitin yaradılmasının vacibliyi bildirilib. Eyni zamanda, ticarət dövriyyəsinin artırılmasının da gündəlikdə duran mühüm məsələlərdən biri olduğu qeyd edilib. Pandemiya bitdikdən sonra ticarət dövriyyəsinin bərpa olunacağına və artırılacağına ümid edildiyi ifadə olunub. Bu baxımdan ticari-iqtisadi əməkdaşlığın şaxələndirilməsinin və qarşılıqlı ixracın genişləndirilməsinin vacibliyi vurğulanıb. Görüşdə ölkələrimiz arasında beynəlxalq əməkdaşlıq sahəsində də sıx əlaqələrin mövcud olduğu məmnunluqla qeyd edilib. Muxtar Tleuberdi də öz növbəsində ikili əlaqələrdən məmnunluq ifadə edib. O, Azərbaycanın ərazi bütövlüyünün bərpası və Qələbə münasibətilə Prezidenti və Azərbaycan xalqını təbrik edib. Qonaq qələbənin regionda sülhün və təhlükəsizliyin möhkəmləndirilməsi işinə xidmət etdiyini bildirib.

Qazaxıstan Baş nazirinin müavini, Xarici işlər naziri Muxtar Tleuberdi Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramovla da görüşüb. Daha sonra mətbuat konfransı keçirilib. Nazir bildirib ki, Xəzər dənizi Azərbaycan və Qazaxıstan arasında dostluq və əməkdaşlıq dənizi olaraq hər zaman gündəmimizin vacib elementi olub: "Qazaxıstanlı həmkarımızla görüşdə 2018-ci ildə Xəzəryanı ölkələrin dövlət başçılarının Aktau şəhərində beşinci zirvə toplantısında əldə edilmiş nəticə xüsusilə qeyd olunub. Bu istiqamətdə fəaliyyətin davam etdirilməsi, ölkələrin mövqelərinin daha da yaxınlaşdırılması, konkret sənədlərin hazırlanmasının vacibliyi qeyd edilib". Qazaxıstanın XİN başçısı da vurğulayıb ki, Azərbaycan Cənubi Qafqazda əsas tərəfdaşdır. Onun sözlərinə görə, Azərbaycan və Qazaxıstan arasında möhkəm dostluq və əməkdaşlıq münasibətləri qurulub: "Qazaxıstanın hazırkı Prezidenti Kasım-Jomart Tokayev bu siyasəti davam etdirərək Azərbaycanla ikitərəfli münasibətlərin möhkəmləndirilməsi istiqamətində addımlar atır. Ötən ilin noyabr ayında əldə olunmuş üçtərəfli razılaşmalar bütün Cənubi Qafqaz regionunda sabitliyin bərqərar olunması, həmçinin kommunikasiyaların bərpa edilməsi üçün imkanlar yaradıb".

Qarabağ savaşından, bölgədə formalaşan yeni reallıqlardan sonra Azərbaycan və Türkiyənin Orta Asiya ölkələri ilə əlaqələri daha da sıxlaşıb, gediş-gəliş artıb. Xüsusən, hesab edilir ki, Mərkəzi Asiyanın önəmli dövlətlərindən sayılan Qazaxıstanla əməkdaşlığı inkişaf etdirmək, münasibətləri ən yüksək müstəviyə daşımaq hər iki ölkə, eyni zamanda region üçün faydalı və mühümdür.

**Siyasi şərhçi Azər Həsrət "Şərq"ə vurğulayıb ki, Qazaxıstan bütün dövrlərdə Azərbaycan üçün əhəmiyyətli tərəfdaş və dost ölkə olub. Ekspertin sözlərinə görə, Azərbaycan istər sovet dönəmində, istərsə də müstəqillik zamanı Qazaxıstanla yaxın əlaqələrə malik olub:** "Mərkəzi Asiya türkləri ilə eyni millətik. Etnik kökənimiz və mədəniyyətimiz bir-birinə çox yaxındır. Üstəlik, 1937-ci il repressiyaların ardından xeyli azərbaycanlı Qazaxıstana köçürülüb, hazırda orada yaşamaqdadırlar. Azərbaycan üçün Qazaxıstan yad ölkə deyil. Necə ki, Türkiyəni özümüzə qardaş bilirik, ayrı görmürük, Qazaxıstana da münasibətimiz eynidir. Türkiyə qərbimizdə, Qazaxıstan isə şərqimizdədir. Qazaxıstanın indiki prezidenti də, xalqın lideri Nursultan Nazarbayev də Azərbaycana münasibətdə həmişə fərqləniblər. Bütün məsələlərdə rəsmi Bakını dəstəkləyiblər. Qazaxıstan Ermənistanın bizi tez-tez "qorxutmağa" çalışdığı KTMT-nin üzvü olmasına baxmayaraq, hər zaman Azərbaycanın yanında durub və bu mövqeyini açıq şəkildə İrəvana göstərib. Bu ölkə ilə əlaqələrin inkişafı bizim üçün çox önəmlidir. Qazaxıstan rəsmilərinin Şuşa Bəyannaməsindən sonra Bakıya səfəri başqa nüanslardan da xəbər verir. Türkiyə Qərblə əlaqələr qurduğu bir zamanda Şərqdəki tərəfdaşımız, Orta Asiyanın ən güclü dövləti - Qazaxıstan da bu prosesdə aktiv rol almaq istəyir. Çindən ta Londona qədər gedəcək dəmiryolu, kommunikasiya xətlərinin üzərində Qazaxıstanın özünəməxsus rolu və yeri var".

**İsmayıl Qocayev**



# Əhməd İsmayılov "Aljazeera" Media İnstitutunun nümayəndə heyəti ilə görüşüb

**Dünən Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov Azərbaycanda səfərdə olan Aljazeera Media İnstitutunun nümayəndə heyəti ilə görüşüb.**

"Şərq " xəbər verir ki, hər iki tərəfdən nümayəndə heyətlənin iştirakı ilə keçirilən görüşdə ikitərəfli formatlarda səmərəli əməkdaşlıq, inkişaf perspektivləri məsələləri ətrafında geniş fikir mübadiləsi aparılıb.

İcraçı direktor Əhməd İsmayılov Media Agentliyinin fəaliyyəti barədə qonaqlara məlumat verib. Vurğulanıb ki, belə səfərlərin təşkili tərəflər arasında əməkdaşlıq platformasının yaradılmasına töhfə olacaq. İkitərəfli dialoqun Azərbaycanda yeni media strategiyasının müəyyən olunmasında əhəmiyyəti qeyd olunub.

Aljazeera Media İnstitutunun Yeni layihələr üzrə meneceri Montaser Maray Azərbaycana səfərdən məmnunluq ifadə edərək, Media Agentliyi və "ADA" Universitetinin İxtisasartırma Proqramlarının birgə təşkilatçılığı ilə keçirilən silsilə seminarların əhəmiyyətinə toxunub.

Bildirilib ki, media sahəsində mövcud problemlərə fərqli perspektivlərdən yanaşmaq üçün təcrübə mübadiləsinin aparılması vacibdir.

*Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib. Qeyd olunub ki, gələcəkdə ikitərəfli səfərlərin təşkili planlaşdırılır.*

**Aygün**

# Ərdoğan zaman söylədi

## "Qarabağın ən geci bir il ərzində tamamən ayağa qalxacağına şahid olacağıq"

**"Quru yolu ilə Şuşaya gedərkən işğal və müharibə dönəminin dağıntılarını, ağrılarını, nəticələrini şəxsən görmək imkanı əldə etdik".**

Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan kabinet iclasından sonra xalqa müraciətində deyib. O, ən geci bir il ərzində işğaldan azad edilmiş bölgələrin yeni çöhrəyə qovuşacağına inandığını, bunun üçün Prezident İlham Əliyevdə lazım olan qərarlılığı və inancı gördüyünü vurğulayıb.

"Brüsseldən bir yerdə gəldiyimiz və birbaşa Azərbaycana səfər etmiş heyət üzvlərimizlə birlikdə quru yolu ilə Şuşaya gedərkən işğal və müharibə dönəminin dağıntılarını, ağrılarını, nəticələrini şəxsən görmək imkanı əldə etdik. Təxminən 30 il davam edən işğal dönəmində Qarabağ və qəsb edilən Azərbaycan torpaqlarında tək mismar vurulmaması ilə yanaşı, var olan mirasın da qəddarlıqla dağıdıldığını gördük. Hər tərəfin necə dağıdıldığını, necə yandırıldığını gördük. Minsk üçlüsünün xüsusilə buraları təkrar-təkrar görməsi lazımdır. Gəlin görün! Kim haranı 30 ildə nə hala gətirib bunu görün! İnfrastrukturun ya heç olmadığı, ya da tamamilə dağıldığı, tarixi və mədəni əsərlərin, evlərin, hətta ağacların yandırılıb dağıdıldığı bu gözəl coğrafiyanı yenidən ayağa qaldırma çalışmalarına da şəxsən şahid olduq. Çoxu Türkiyə mənşəli firmaların beş-altı ay kimi qısa bir müddətdə bizim Qara dəniz bölgəmizə bənzəyən çətin bir coğrafiyada bacardıqları önəmli işləri gördükdə ölkəmiz adına qürur duyduq. Yolların açılmağa, tunellərin tikilməyə başlandığı şəhər və istehsal müəssisələrinin yenidən inşa edildiyi bu bölgənin ən geci bir il ərzində tamamən yeni bir çöhrəyə qovuşmuş olacağına inanıram və cənab İlham Əliyev də bu qərarlılığı gördüm, bu inancı gördüm və bununla birlikdə də bu bölgənin bir il içərisində ayağa qalxacağına da şahid olacağıq", - deyə Türkiyə Prezidenti R.T. Ərdoğan bildirib.

Ərdoğan vurğulayıb ki, Türkiyə və Azərbaycan arasında imzalanmış Şuşa Bəyannaməsi ilə iki ölkə arasındakı əlaqələrdə yeni dönəm başlayıb. (apa)

"Qarabağa yenidən həyat verməklə yanaşı, azərbaycanlı qardaşlarımızın bir daha bu cür fəlakətlər yaşamaması üçün bir millət, iki dövlət ruhuna uyğun şəkildə tədbirlərimizi alırıq. Qardaşım Əliyevlə birlikdə imzaladığımız və dünyaya elan etdiyimiz Şuşa Bəyannaməsi ilə əlaqələrimizdə yeni bir dönəm başlatdıq. Bu bəyannamə çərçivəsində bir çox anlaşmanı çox yaxın zamanda Türkiyə və Azərbaycan olaraq imza altına alacaq, beləcə qardaşlığımızın hüquqi təməlini daha da gücləndirəcəyik. Şuşa Baş Konsulluğumuzun ən qısa müddətdə açılmasından Zəngəzur dəhlizinin bir an öncə işləməsinə qədər gündəmimizdəki hər bir başlığı qərarlılıqla və sürətlə həyata keçirəcəyik. Önümüzdəki aylarda ölkəmizdə gerçəkləşdirəcəyimiz Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının iclasında bu xüsusla əlaqəli konkret addımların çoxunu atmağı planlaşdırırıq",- deyə R.T Ərdoğan bildirib.



# Saakaşvili Əliyevi örnək göstərdi

## Gürcüstanın keçmiş prezidentinin açıqlamasında səmimi etiraflar var

*Gürcüstanın keçmiş prezidenti Mixail Saakaşvili Ukraynanın "1 + 1" telekanalında "Hakimiyyət hüququ" siyasi tokşousunun iştirakçısı olarkən bir neçə il əvvəl təyyarədə Azərbaycan Prezidenti İlham Əliyevlə söhbətini xatırladıb: "İlham Əliyevin təyyarəsində Strasburqdan uçurduq (Avropa Şurasında birlikdə çıxış etdik).*

Təyyarə Qara dəniz sahili üzərindən uçdu. Abxaziyaya heç olmasa yuxarıdan baxmaq üçün təyyarənin bir az aşağıdan uçmasını istədim. Çünki Abxaziya üçün darıxırdım, ailəm oradandır.

Və o dedi: "Bilirsən Mişa, həm bizim, həm də sizin üçün bu, bir neçə ilin məsələsidir. Gecə-gündüz bu barədə düşünməliyik. Bunu heç vaxt unutmamalı və hazırlaşmalı, hər gün hazırlaşmalıyıq ... ".

**"Müstəqil Mətbuat Mərkəzi" İctimai Birliyinin sədri, politoloq Elçin Xalidbəyli "Şərq"ə bildirib ki, Saakaşvilinin açıqlamasında bir neçə önəmli məqam var:** "Birincisi, M.Saakaşvili Azərbaycanın çox səmimi dostudur. 44 günlük savaş dövründə Azərbaycanın haqlı mübarizəsini açıq şəkildə dəstəkləmişdi. Hətta Ermənistanın ünvanına sərt ittihamlar da səsləndirmişdi.




Digər tərəfdən, indi məlum olur ki, M.Saakaşvili Azərbaycanın dostu olmaqla yanaşı, onun Azərbaycan Prezidenti İlham Əliyev ilə xüsusi münasibətləri var. Bu, Azərbaycan Prezidentinin qonşu dövlətlərlə normal münasibətlər qurmaq bacarığını da göstərir.

Eyni zamanda, M.Saakaşvilinin Azərbaycan Prezidentinin dilə gətirdiyi "Gecə-gündüz bu barədə düşünməliyik, hazırlaşmalıyıq" məsləhətini xatırlaması da xüsusi mesaj xarakteri daşıyır. O, bununla bir tərəfdən Prezidenti İlham Əliyevin Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək istiqamətində daim düşündüyünü, buna hazırlaşdığını gündəmə gətirib. Digər tərəfdən isə Gürcüstanın hakimiyyət dairələrinə dolayısı ilə Azərbaycanı və onun Prezidentini örnək göstərməyə çalışıb".

**E.Xalidbəylinin sözlərinə görə, M.Saakaşvili dolayısı ilə demək istəyib ki, Prezident İlham Əliyev Rusiya faktorundan çəkinmədən ölkəsinin ərazi bütövlüyünü təmin etməyə hazırlaşıb və nəticədə buna nail olub:**

"İndi Gürcüstan da Azərbaycanı örnək almalıdır, öz ərazi bütövlüyünü təmin etməyə hazırlaşmalıdır və Rusiya faktorundan çəkinməməlidir. Burada üstüörtülü şəkildə Gürcüstan hökumətinə yönəlik qınaq da olmamış deyil.

M.Saakaşvili öz ölkəsinin siyasi dairələrinin mövcud vəziyyətlə barışdığına, Rusiya faktoru qarşısında geri çəkildiyinə eyham vurur. Təbii ki, M.Saakaşvili təcrübəli siyasi xadimdir. Gürcüstanın bugünkü inkişaf səviyyəsi onun hakimiyyəti dövründə yürüdülən daxili və xarici siyasət kursu ilə birbaşa bağlıdır. M.Saakaşvilinin prezident olduğu dönəmdə Gürcüstanda aparılan köklü islahatlar bu gün də qonşu ölkəyə öz müsbət nəticələrini verməkdə davam edir".

**Yeganə Bayramova**

# Revanşist ideyalar gündəmdən çıxdı

## "Paşinyan öz siyasətini davam etdirəcək"



**Ermənistanın sabiq prezidenti Robert Koçaryanın rəhbərlik etdiyi "Hayastan" bloku növbədənkənar seçkilərin nəticələrini tanımadıqlarını bəyan ediblər. Blokun yaydığı bəyanatda bu barədə mövqe açıqlanıb. Bəyanatda deyilir ki, "Hayastan" parlament seçkilərinin nəticələrini tanımağa hələ ki hazırlaşmır.**

Blok hesab edir ki, səsvermənin nəticələri mübahisəlidir və etimad yaratmır. "Bu nəticələr ölkədə son 8 ayda baş vermiş proseslərlə ziddiyyət təşkil edir."Hayastan" bloku səsvermədki qanun pozuntularını ciddi şəkildə öyrənəcək. Bütün bu məsələlər cavabını tapmayınca səsvermənin nəticələrini tanımayacaq".

Qeyd edək ki, Ermənistanda parlament seçkiləri baş tutub. Ölkənin Mərkəzi Seçki Komissiyasından verilən məlumata görə, Baş nazir vəzifələrini icra edən Nikol Paşinyanın "Vətəndaş sazişi" partiyası səslərin 53.9 faizini toplamaqla qalib gəlib. Ermənistanın eks-prezidenti Robert Koçaryanın "Ermənistan" bloku isə 21 faiz səs qazanıb.

Məlumdur ki, seçkilərdən öncə Ermənistanda qarışıq durum hökm sürürdü. Paşinyan və rəqibləri arasında siyasi qarşıdurmalar yaranmışdı. Lakin seçkilər yekunlaşsa da, müəyyən gərginlik davam edir. Maraqlıdır, Koçaryanın seçki nəticələrini tanımaması ölkədə xaosun yaranmasına və müəyyən qarışıqlığa səbəb ola bilərmi?

**Azərbaycanın sabiq xarici işlər naziri Tofiq Zülfüqarov "Şərq"ə açıqlamasında Ermənistanda xaosun davam edəcəyini söyləyib:** "Seçkiqabağı kampaniyanı yada salsaq, görərik ki, Koçaryan və Sarkisyan Rusiya mediası, ermənilərin Rusiyada olan Diasporu tərəfindən dəstək alıblar. Hesab edirəm ki, bu dəstək tam səmimi deyildi. Eyni zamanda görürdük ki, Rusiya Paşinyana dəstəyini də davam etdirirdi. Yəni hiss olunurdu ki, sadəcə olaraq bir görüntü üçün müəyyən dəstəklər verilirdi. Çünki gərgin zamanlarda olduğu kimi, məsələn, Ermənistan Baş Qərargah rəisinin vəzifədən çıxması zamanı yenə Rusiya tərəfindən hansısa dəstək bəyanatları var idi. Belə görsənir ki, revanşist ideyaları irəli sürən ruspərəst dairələr reallıqda heç də Rusiya tərəfindən dəstəklənmir. Bu da onu deməyə əsas verir ki, artıq revanşist ideyalar gündəmdə deyil və Paşinyan öz siyasətini davam etdirəcək. Lakin yenə Ermənistanda mürəkkəb proseslər olacaq. Paşinyanın əsas məqsədi Ermənistanı Qərbə bağlamaqdır. Ona görə də İrəvanda siyasi qarşıdurmalar davam edəcək".

**Yeganə Bayramova**

# Azərbaycanın təcrid siyasəti qalib gəldi

## Seçkilərin nəticəsi göstərdi ki, Ermənistan xalqı işğalçılıq təfəkküründən boğaza yığılıb

*Xəbər verdiyimiz kimi, iyunun 20-də Ermənistanda növbədənkənar parlament seçkiləri keçirilib. Paşinyanın partiyası 53,92 faiz səslə (687 251 seçici) qalib gəlib. Əslində seçkinin nəticələri Azərbaycanın və Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin qələbəsidir.*

Prezident İlham Əliyevin müstəqil və milli maraqlara əsaslanan siyasəti sayəsində Azərbaycan güclü dövlətə, regionun siyasi, iqtisadi və humanitar mərkəzinə çevrildi, ölkəmizin maliyyə imkanları, iqtisadi potensialı, hərbi gücü artdı. Azərbaycan beynəlxalq münasibətlər sistemində öz prinsipial mövqeyi ilə seçilən və yüksək nüfuza malik ölkəyə çevrildi.

Azərbaycanın həyata keçirdiyi təcrid siyasəti nəticəsində Ermənistan regionun siyasi və iqtisadi həyatından kənarda qaldı. Ölkənin iqtisadiyyatı çökdü, əhalinin sosial durumu ağırlaşdı, Ermənistan xarici yardımdan asılı vəziyyətə düşdü.

**Ermənistandakı mövcud durumu "Şərq"ə şərh edən millət vəkili Cavid Osmanov bildirib ki, Prezident İlham Əliyev tərəfindən davam həyata keçirilən siyasət nəticəsində Ermənistan işğalçılıq faktına görə dalan bir dövlətə çevrildi:** "Bölgədəki bütün layihələrdən təcrid olunan Ermənistanın günü-gündən iqtisadi durumu ağırlaşdı. Ötən ilin 27 sentybarında başlanan və 44 gün davam edən Vətən müharibəsində Ali Baş Komandanımızın rəhbərliyi ilə ordumuz parlaq qələbə



qazandı. Azərbaycan ərazi bütövlüyünü təmin etdi. Bunun fonunda Ermənistanda mürəkkəb vəziyyət yarandı, ölkədə dərin böhran hökm sürdü. Gün keçdikcə mövcud böhranlar daha da dərinləşdi. İqtisadi, siyasi, hərbi və digər sahələrdə vəziyyət pisləşdi.

Bu zaman Ermənistan məcburən növbədənkənar parlament seçkiləri keçirdi. Paşinyan qalib gəldi və əlbəttə, bu bir daha onu göstərir ki, artıq 30 il müddətində erməni xalqı Ermənistanın işğalçılıq siyasətindən boğaza yığılıb. Məlumdur ki, ölkədə ordunun qalıqları ayrı-ayrı klanların əlində alətə çevrilib. Ölkə siyasətinin mərkəzində terrorçuluq, separatizm dayanır. Bunlar isə cənab Prezidentimiz tərəfindən aparılan uğurlu siyasət nəticəsində Ermənistan dalan ölkəyə çevrildi və rəsmi İrəvan bütün layihələrdən kənarda qaldı. Ölkə sərhədlərinin bir çox hissəsini ayrı dövlətlərin hərbi qoşunları qoruyur".

**Parlament üzvü qeyd edib ki, Ermənistanın daxilində xarici təsirlər də çoxdur:** "Artıq onlar dilənçi vəziyyətinə düşüblər və xarici dövlətlərdən asılı vəziyyətdədirlər. Paşinyanın seçilməsi erməni cəmiyyətinin iqtisadi-siyasi böhrandan çıxmaq niyyətinin bir nəticəsidir. Erməni xalqı Paşinyanı seçməklə köhnə "xunta rejimi"ni rədd edərək, müharibədən əl çəkib, sülh içində yaşamaq niyyətlərini büruzə verir. Əslində erməni xalqı da artıq bezib. Çünki onlar yaxşı görürlər ki, köhnə "xunta rejimi" revanşist ritorika ilə çıxış edir və revanş düşüncəsi ilə yaşayan adamlar Ermənistanın dövlət kimi mövcudluğunu sual altına qoyur. Ona görə də hazırda Ermənistanda baş verən bu ölkənin işğalçılıq siyasətinin nəticəsidir".

**Yeganə Bayramova**



# Sonuncu şans...

## Erməni xalqı sülhə və sabitliyə səs verdi

Ermənistanda iyunun 20-də keçirilən parlament seçkisinin nəticələri bəlli oldu. Mərkəzi Seçki Komissiyasının bütün seçki bülletenlərini saymasından sonra Nikol Paşinyanın "Mülki Müqavilə" Partiyasının səs faizi 55, Robert Koçaryanın Ermənistan Blokunun isə 20 faiz olub. Serj Sarkisyanın "Şərəf duyuram" bloku 5, "Çiçəklənən Ermənistan" partiyası isə 4 faiz səs qazanıb. Ümumilikdə seçkilərdə səsvermə hüququ olan insanların cəmi 49,4 faizi səs verib. Ən yüksək seçici aktivliyi Zəngəzurda, ən aşağı isə Şirak vilayətində qeydə alınıb.

Seçkilərdə əsas rəqiblər Baş nazir vəzifəsini icra edən Nikol Paşinyanla, Ermənistanın ikinci prezidenti, "Ermənistan" blokunun lideri Robert Koçaryan hesab olunurdu. Nikol Paşinyan bazar ertəsi günü bəyan edib ki, onun "Vətəndaş müqaviləsi" partiyası parlamentdə konstitusional çoxluq əldə edərək hökuməti formalaşdıracaq. Ermənistanın Seçki Məcəlləsi Paşinyanın növbədənkənar parlament seçkisində səslərin 50 faizindən çoxunu qazanmış "Vətəndaş müqaviləsi" partiyasının təkbaşına hökuməti formalaşdırmasına imkan verir. Parlamentə düşməyən digər partiyaların da səsinin bölgüsü əsasında Nikol Paşinyanın partiyası 71 yer qazanıb. Ermənistan konstitusiyasında parlamentin minimum 101 yerdən formalaşması tələb olunur. Parlamentdə müxalifətin 1/3-də az təmsilçiliyinin olmaması tələbi nəzərə alınmaqla Koçaryanın seçki bloku əlavə 2 yer qazanacaq və deputatlarının sayını 29-dan 32-yə çatdıracaq. Bu isə Nikol Paşinyanın partiyasının hökuməti təkbaşına formalaşdıra biləcəyindən xəbər verir. 54 faizlik sabit səs çoxluğunu təmin etmək üçün Paşinyanın partiyasına əlavə mandatlar veriləcək.

Ermənistan Mərkəzi Seçki Komissiyasının sədri Tiqran Mukuçyan deyib ki, mandatlar bir həftədən, səslərin yekun sayılmasından sonra bölüşdürüləcək. "Müxalifətin mandatdan imtinası halında nə baş verə bilər" sualına cavabında Mukuçyan bildirib ki, qanunvericiliyə görə belə mexanizm yoxdur: "İndiki mərhələdə mandatdan imtina institutu yoxdur. Namizəd öz mandatından özü, şəxsi olaraq imtina edə bilər". Onun sözlərinə görə, müxalifət üzvləri mandatdan imtina edərsə, parlamentdə heç kəsdən asılı olmayan qüvvə qalacaq. Yəni müxalifətin mandandan imtinası halında yeni seçki keçirilməsi zərurətinin ortaya çıxmayacağına işarə edilib.

MDB-nin müşahidə missiyasının rəhbəri İlhom Nematov seçki prosesinin qanunvericiliyə uyğun keçirildiyini, müşahidəçilərin nəticələri şübhə altına ala biləcək heç bir ciddi pozuntuya rast gəlmədiklərini bəyan ediblər. Lakin ölkə Prokurorluğunda seçkilərdəki qanun pozuntuları ilə bağlı 6 cinayət işi açılıb. Ümumilikdə seçkilər zamanı qanun pozuntuları ilə bağlı 319 məlumat daxil olub.

Ermənistandakı seçkini dəyərləndirən rusiyalı politoloq, millətlərarası münaqişələr üzrə mütəxəssis Yevgeni Mixaylov deyib ki, ermənilər Azərbaycanla necə yaşamaq istədiklərini seçdilər. Onun sözlərinə görə, Ermənistanda sağlam düşüncə qalib gəldi. Çünki Nikol Paşinyanın partiyasına səs verən erməni xalqı öz ölkəsini bu keçid dövründə sülh və sabitliyə aparmaq istəyir: "Erməni xalqı başa düşür ki, onların ölkəsi "revanşizm" ideyasını və millətçilik cəhdlərini unutmalıdır. Paşinyana etimad krediti verildi. İndi o, dinc və firavan ölkə yaratmalıdır. Demək ki, erməni milləti Azərbaycan və Türkiyə ilə sülh şəraitində olacaq bir ölkədə yaşamaq istəyir. Bütün sərhədlərin açılmasına nail olacaq bir ölkədə. Bütün dünyada normal hesab ediləcək bir ölkədə. Ermənistanda keçirilən seçki bütün regiona və Ermənistanın özünə sabahkı gün üçün şans verdi. Bu seçkilərin nəticələri Ermənistanı dövlət kimi qoruyub saxlaya bilər. Bundan başqa, bu, Ermənistanı iqtisadi cəhətdən inkişaf etdirməyə imkan verəcək".

Rusiyalı tarixçi, hərbi ekspert Oleq Kuznetsov da bildirib ki, Koçaryanın seçkiqabağı təşviqatının açıq şəkildə revanşist məzmunu sülh istəyən elektoratı ondan uzaqlaşdırdı: "Koçaryanın İrəvanda tərəfdarlarının qarşısında Azərbaycana qarşı yeni müharibə açmaq istəməsi barədə qışqırıqları heç də orta statistik erməni əhalisinin planlarına daxil deyildi. Əminəm ki, hazırkı erməni hərbçilərinin və ehtiyatda olanların əksəriyyəti, eləcə də onların ailə üzvləri Paşinyana yalnız onun dövründə yeni müharibənin dəqiq olmayacağı ümidilə səs veriblər. Koçaryanın elektoratı da kütləvi şəkildə aldanmış oldu. Onlar bu sistemin radikal ritorikanın təsirinə daha çox məruz qaldı. Koçaryana isə dəstək Kremldən deyil, Rusiyanın kriminal pullarla yedizdirilmiş mətbuatından gəlirdi. Etiraf etmək lazımdır ki, Rusiyanın kütləvi informasiya vasitələrində Ermənistanın eks-prezidenti Koçaryanın siyasi blokunun xeyrinə kütləvi və aqressiv təbliğat müşahidə olunurdu. Rəsmi Moskvanın siyasi kursuna zidd olaraq Rusiya mətbuatının bu tip fəaliyyəti mənim ölkəmin informasiya məkanında erməni kriminal dairələrinin nə qədər ciddi təsiri olduğunu göstərirdi. Ermənistanın yeni hökuməti yarandığı ilk gündən etibarən adaptasiya dövrü olmadan yeni geosiyasi reallıqlarda fəaliyyət göstərməli olacaq. Yeni reallıqlar isə göz qabağındadır".

### Paşinyan yeni etimad krediti ilə ölkəsini bölgədə yaranmış yeni reallıqlara tam uyğunlaşdıra bilər

Qeyd olunduğu kimi ciddi sosial-iqtisadi problemlər Ermənistan cəmiyyətini ayağa qalxmağa və Koçaryan-Sarkisyanın simasında insanları düşmənçilik abhavasına kökləyərək ölkəni və xalqı qarət edən sistemi tarixin arxivinə göndərməyə məcbur etdi. Koçaryan-Sarkisyan cütlüyünün məğlubiyyəti göstərdi ki, erməni xalqı 44 günlük müharibədən sonra yaranmış yeni geosiyasi mənzərəni, müharibənin nəticələrini qəbul edir. Revanşistlərə yenidən meydan vermək niyyətində deyil. Bir daha aydın oldu ki, Qarabağsız "Qarabağ klanı" artıq Ermənistanda heç kəsə lazım deyil. Koçaryan-Sarkisyan təkcə hərb meydanında deyil, həm də siyasi meydanda məhv oldular. Seçkilərin nəticələri göstərdi ki, erməni xalqı revanşist meyillərə yox deyir. 2016-cı ilin aprelində Azərbaycan Ordusuna məğlubiyyət Sarkisyan rejiminin sonunu gətirdi. 44 günlük müharibədə məğlubiyyət isə revanşistlərin hakimiyyətə qayıdış yolunu birdəfəlik kəsdi. Bütün qüvvələrini səfərbər etsələr də, xaricdən ciddi dəstək alsalar da, iflasa uğradılar. Qarşıdan gələn dövrdə Ermənistan hakimiyyəti konstruktiv mövqe nümayiş etdirərsə, artıq formalaşmış yeni geosiyasi reallığın yaratdığı imkanlardan Ermənistan da bəhrələnə və dinc həyatını qura bilər.

"Atlas" Araşdırmalar Mərkəzinin eksperti Samir Hümbətov "Şərq"ə vurğulayıb ki, Paşinyanın seçkidə qalib gəlməsi təkcə ölkədaxili üçün deyil, eyni zamanda ölkəxarici siyasət üçün vacib əhəmiyyət daşıyır. Bu əhəmiyyət həm siyasi, həm iqtisadi, həm də təhlükəsizlik baxımından qiymətləndirilə bilər. Analitikin sözlərinə görə, Paşinyanın seçkidəki rəqibi təkcə Robert Koçaryan deyil, eyni zamanda Koçaryana dəstək verən Rusiyadakı bəzi dairələr idi: "Bundan sonrakı mərhələdə Nikol Paşinyan Rusiyanın Ermənistanda dominatlığını aradan qaldırmaq məqsədi ilə Qərblə münasibətləri daha da dərinləşdirməyə, qərb ölkələri, xüsusilə də ABŞ və Fransa ilə sıx siyasi, iqtisadi və digər münasibətləri dərinləşdirməyə çalışacağı gözlənilməndir. Rusiyada bəzi dairələr tərəfindən dəstəklənən eks prezident Robert Koçaryanın 20 faiz civarında səs toplaması iki məsələni aydınlaşdırmağa imkan verir. Eks prezidentin, dolayısı ilə Rusiyanın Ermənistanda mövqeyi demək olar ki, son üç ildə tamam zəifləyib. Baxmayaraq ki, Rusiya II Qarabağ savaşında Ermənistana həm silah-sursat və hərbi texnika, həm də siyasi dəstək göstərmişdi. Lakin erməni cəmiyyəti hakimiyyətdə Qarabağ klanını deyil, Ermənistan klanını görmək niyyətindədir. Bu seçkilər həm də onu göstərdi ki, Cənubi Qafqazda yeni geosiyasi və geostrateji reallıqlar formalaşmağa başlayıb. Məhz Nikol Paşinyanın hakimiyyətə gəlməsi regionda zamanla bir neçə məsələni dəyişə bilər. Hazırda ən önəmli məsələlər işğaldan azad edilmiş ərazilərdə basdırılmış minaların xəritələrinin Azərbaycana qaytarılması, sərhədlərin müəyyənləşdirilməsi, üçtərəfli bəyannamənin şərtlərinə uyğun olaraq Zəngəzur dəhlizinin açılmasıdır. Qeyd edilən şərtlər reallaşarsa və Ermənistan tərəfi həm Azərbaycan, həm də Türkiyə ilə dil taparsa, Azərbaycana və Türkiyəyə qarşı ərazi iddialarından əl çəkərsə, tərəflər arasında normallaşma prosesinin başlamasını görmək mümkündür. Azərbaycan və Ermənistan arasında yekun sülh müqaviləsinin imzalanması da gerçəkləşə bilər ki, bu da regionda daimi sülhün qorunub saxlanmasına xidmət edər".

**İsmayıl Qocayev**



## Türkiyədə iyulun 1-dən küçəyə çıxma məhdudiyyəti ləğv olunacaq

**"İyulun 1-dən Türkiyədə küçəyə çıxma məhdudiyyəti ləğv olunacaq".**

APA-nın yerli bürosunun xəbərinə görə, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Nazirlər Kabinetinin növbəti iclasından sonrakı açıqlamasında bildirib.

Şəhərlərarası və şəhərdaxili səfərlərdəki məhdudiyyətlərin də aradan qaldırıldığını deyən Türkiyə Prezidenti "Həyat Evə Sığar" (HES) kodunun tətbiqinin və ölkə boyu yeni növ koronavirusa qarşı peyvəndləmənin daha da genişləndiriləcəyini bildirib.

## Bir nəfər vəfat edib

### Azərbaycanda son sutkada koronavirusa 28 nəfər yoluxub




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 28 yeni yoluxma faktı qeydə alınıb, 49 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 1 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 335 521 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 329 599 nəfər müalicə olunaraq sağalıb, 4 963 nəfər vəfat edib, aktiv xəstə sayı 959 nəfərdir.

*Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 5 115, ötən müddət ərzində isə ümumilikdə 3 680 977 test aparılıb.*

## Balakəndə polis xidməti silahı ilə intihar edib

**Balakən Rayon Polis Şöbəsinin əməkdaşı xidməti silahla özünü vuraraq intihar edib.**

Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətindən "Şərq"ə bildirilib ki, hadisə iyunun 21-i saat 19 radələrində baş verib. Balakən Rayon Polis Şöbəsinin əməkdaşı, polis serjantı Tural Əliyev ərazidə xidmətdə olarkən ona təhkim edilmiş xidməti silahla özünə atəş açaraq intihar edib.

*Faktla bağlı Daxili İşlər Nazirliyi tərəfindən xidməti araşdırma aparılır.*

# İranın təklifi xoşniyyətli deyil

**Minaların təmizlənməsi Azərbaycan və Türkiyənin nəzarətində olan prosesdir**



Qarabağın minalardan təmizlənməsində İranın iştirakı üçün tezliklə texniki işçi qruplar müzakirə aparacaq. Bunu İranın Azərbaycandakı səfiri Seyid Abbas Musəvi deyib. S.A.Musəvinin sözlərinə görə, İran şirkətləri azad olunan ərazilərin minalardan təmizlənməsində iştirak etməyə hazır olduqlarını bildiriblər:

”Tezliklə bununla əlaqədar iki ölkə arasında texniki işçi qruplar müzakirələr aparacaq. Ərazilərin minalardan təmizlənməsinə kömək göstərmək həm humanist addım, həm də qonşuluq borcudur. Hər halda İranın Səddam Hüseynin dövründə İraqla 8 il müharibəsi olub. Bu müharibədə İran çoxlu sayda təcrübə əldə edib. Bu təcrübələrdən biri də ərazilərin minalardan təmizlənməsidir. Bu sahədə İranda böyük hazırlıq var və tezliklə bu sahədə işlərə başlanılacaq”. Səfir xatırladıb ki, İranın Ali lideri müharibə getdiyi vaxtda Azərbaycana aid bütün ərazilərin bu ölkəyə geri qaytarılmalı olduğunu elan edib.

**Qarabağın minalardan təmizlənməsində İranın iştirakı barədə ”Şərq”ə açıqlama verən politoloq Natiq Miri deyib ki, bu, Azərbaycanın və Türkiyənin nəzarətində olacaq bir prosesdir.** Ancaq hər bir halda İranın bu məsələdə nə qədər xoşniyyətli olması müəyyən şübhələr yaradır: ”İran əslində Qarabağın bərpa prosesinə qatıla bilmədiyi üçün dolayısıyla məhz məsələyə bu prizmadan yanaşır. Bununla da o, prosesə qoşulmaq istəyir və gələcəkdə Qarabağın yenidən inşa olunması prosesində müəyyən işlər görmək niyyətindədir. Ancaq bu yöndə əməkdaşlıq İrana birbaşa təklif olunmayıb. Bildiyiniz kimi, hətta İranın Xarici işlər naziri də son aylarda Azərbaycana və Ermənistana səfər etdi. Bu səfər çərçivəsində Azərbaycan prezidentinə Qarabağın inşasında İranın iştirak etmək niyyətini açıqlasa da, Azərbaycan prezidenti bu məsələyə o qədər də müsbət yanaşmadı. Yəni birmənalı münasibət ortaya qoymadı. Bu da dolayısıyla bu məsələnin o qədər də Azərbaycan üçün arzuolunan bir məsələ olmadığını üzə çıxardı. Fikrimcə, bu, İranın növbəti pis hiyləsidir. Məhz minaların təmizlənməsi prosesi vasitəsilə Qarabağın inşa prosesinə girişmək istəyir. Əgər həqiqətən də Qarabağda minaların təmizlənməsi prosesinə İran ciddi mənada qatqı ortaya qoyarsa, əlbəttə ki, bundan sonra İranın digər məsələlərdə iştirakından imtina etmək mümkün olmayacaq”.

**Politoloq əlavə edib ki, İranın Qarabağ prosesində, hətta 44 günlük Vətən savaşında Azərbaycana yönəlik nə qədər düşmənçilik mövqeyində olduğu heç kimə sirr deyil:** ”Azərbaycan ictimaiyyəti bu yöndə həqiqətən də məlumatlıdır. Ona görə də İran sözün əsl mənasında Azərbaycan ictimaiyyətində özünü doğrultmaq istəyirsə, o zaman konkret siyasət ortaya qoymalıdır. Bilirsiniz ki, yaxın günlərdə bir neçə İran generalı Ermənistana səfər etdi. Hətta Ermənistan ordusunun yenidən qurulması prosesinə İranın ciddi dəstək verməsi də Nikol Paşinyan hökumətinin diqqətinə çatdırıldı. Sadəcə, Paşinyan bu məsələyə razılıq vermədi. Çünki bu məsələ Ermənistan üçün problematik məsələ idi. Səbəb isə belə idi. Buna nə Rusiya razı ola bilərdi, nə də ki, Paşinyanı dəstəkləyən dövlətlər imkan verərdi. Belə olduğu təqdirdə İran yeni bir hiyləyə əl atıb. Bu hiylə vasitəsilə də Qarabağdakı inşa prosesinə girmək niyyətindədir. Hələlik Azərbaycanın buna hansı münasibət bildirəcəyi bəlli deyil. Hər halda düşünürəm ki, birmənalı olaraq bu, İranın təkbaşına görəcəyi iş deyil. O birbaşa Azərbaycan və Türkiyənin nəzarətində olacaq bir iş olacaq. Ancaq hər bir halda İranın bu prosesə qoşulmasına imkan vermək olmaz”.

> “İran yeni bir hiyləyə əl atıb. Bu hiylə vasitəsilə də Qarabağdakı inşa prosesinə girmək niyyətindədir”

**Aynurə Pənahqızı**



## Generalımız Moskvaya gedib

**“Bu məsləhətləşmələrin regionda baş verən hadisələrə müsbət təsiri ola bilər”**

**Azərbaycan Respublikası Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyevin rəhbərlik etdiyi nümayəndə heyəti iyunun 22-dən 24-dək keçiriləcək IX Beynəlxalq Təhlükəsizlik Konfransında iştirak etmək üçün Moskva şəhərinə yola düşüb. Bu barədə ”Şərq”ə Müdafiə Nazirliyindən məlumat verilib.**

Rusiya Federasiyası Müdafiə Nazirliyi tərəfindən təşkil edilən beynəlxalq konfransda qlobal və regional təhlükəsizlik məsələləri müzakirə olunacaq.

**Hərbi ekspert Ədalət Verdiyev sözügedən səfərin indiki məqamda ölkəmiz üçün əhəmiyyətini ”Şərq”ə dəyərləndirib.**

Artıq 9-cu belə konfransın keçirildiyini deyən ekspert vurğulayıb ki, Azərbaycan Rusiya ilə həm regional, həm də qlobal təhlükəsizlik məsələlərinin müzakirəsində davamlı olaraq iştirak edir: ”Hesab edirəm ki, Qarabağda formalaşan yeni geosiyasi vəziyyət fonunda bu məsləhətləşmələrin regionda baş verən hadisələrə müsbət təsiri ola bilər. Bilirik ki, Rusiya həm Qarabağın təhlükəsizliyində sülhməramlılarının vasitəsilə iştirak edir, həm də bizimlə müxtəlif platformalarda əməkdaşlığı mövcuddur. Ən azından baş verən son proseslərə eyni baxış bucağının formalaşması üçün belə müzakirələrin aparılması faydalı ola bilər”.

**Yeganə Bayramova**

## Azərbaycan NATO dövlətinə çevrilir

**“Ən strateji məsələ ordumuzun NATO standartlarına uyğun formalaşmasıdır”**



**“Azərbaycan NATO ölkəsi olur”. Bu sözləri Sosial Tədqiqatlar Mərkəzinin mətbuat xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli deyib. O, ”Şərq”ə açıqlamasında məsələyə daha ətraflı aydınlıq gətirib:** ”Bu təkcə NATO-nun tamhüquqlu üzvü olması kimi başa düşülməməlidir.

NATO keyfiyyətli, NATO standartlarına cavab verən və bu təşkilatın üzvü olan ölkə, yəni Türkiyə ilə əməkdaşlıq özü çox şeydən xəbər verir. İkinci bir tərəfdən, NATO-nun, xüsusilə Türkiyənin bölgədə yaratdığı yeni dizaynın əsas iştirakçısı məhz Azərbaycandır. Bu reallığı unutmaq olmaz. İndi qarşımızdakı ən strateji məsələ ordumuzun NATO standartlarına uyğun formalaşmasıdır. Şuşa Bəyannaməsinə uyğun olaraq Azərbaycan və Türkiyənin hərbi əməkdaşlığının təsdiqlənməsi də çox mühümdür. Bizim NATO üzvü olan rəsmi Ankara ilə müttəfiqliyimiz NATO ”çətiri altına” girməyimiz deməkdir”.

**Kənan**

# Moskva bölgədə istədiyi kimi “at oynada” bilməyəcək

## “İrəvan “forpostluq”dan xilas olub Avropaya yaxınlaşacaq

"Ermənistanın Mərkəzi Seçki Komissiyasının yaydığı ilkin məlumatlara görə, "Vətəndaş Razılaşması" Partiyası yeni seçilən parlamentdə 105 yerdən ən azı 71-nə sahib olmaqla konstitusional çoxluğa malik olacaq".

Bunu ”Vətəndaş Razılaşması” Partiyasının sədri, Ermənistanın Baş naziri vəzifəsini icra edən Nikol Paşinyan tvitterdə yazıb.

O, ”Vətəndaş Razılaşması” Partiyasının təkbaşına hökumət formalaşdıracağını və yeni hökumətə özünün başçılıq edəcəyini bildirib. Sözügedən partiya 53,92 faiz səs toplayıb. Sabiq prezident Robert Koçaryanın rəhbərlik etdiyi ”Ermənistan” bloku 21,04 faiz səs yığıb. Əlbəttə, Paşinyanın qalib gəlməsi region üçün əhəmiyyətlidir. Çünki Azərbvaycan kimi qonşu dövlətlər də yaxşı bilir ki, bölgədə sülh və əmin-amanlığın təmin olunmasından ötrü Ermənistanda ən real namizəd məhz həmin siyasətçidir.

**”Şərq”in Ermənistanın bundan sonrakı siyasəti barədə suallarını politoloq Qabil Hüseynli cavablandırıb:**



**- Seçkilərin nəticəsini necə qiymətləndirirsiniz?**

- Koçaryan qalib gəlsəydi, region ”çalxalanacaqdı”. Nə yaxşı ki, Paşinyanın səsi daha çox oldu. Bundan sonra Azərbaycanla yekun sülh müqaviləsinin imzalanması istiqamətində problemlər yaranmayacaq. Proseslər nəzarət altında olsa, demarkasiya, kommunikasayaların açılması prosesi sürətlənəcək və region iqtisadi inkişaf yoluna qədəm qoyacaq.

**- Nəyə əsasən belə proqnozlaşdırırsınız?**

- Çünki Paşinyan Rusiyanın təsirlərindən kənar fəaliyyət göstərməyi bacarır. O, həmçinin Azərbaycan və Türkiyə ilə normal münasibətlərdə, ölkəsini blokadadan çıxarmaqda və dolayısı ilə kompromislərə getməkdə maraqlıdır.

**- Bundan sonra ”Qarabağ klanı”nın taleyi necə olacaq?**

- Onlara qarşı mübarizə güclənəcək. Hətta əli qana batmış, cinayət məsuliyyətinə cəlb olunmuş Koçaryanla Sarkisyanın ədalət məhkəməsi qarşısına çıxarılacağını istisna etmirəm.

**- Rusiyanın regionla bağlı siyasətində nələr dəyişəcək?**

- Moskva bölgədə istədiyi kimi ”at oynada” bilməyəcək. Hər fürsətdə İrəvanı qabağa verib, meydanı qarışdırmağı bacarmayacaq. İrəvan ”forpostluq”dan xilas olub Avropaya yaxınlaşacaq və Qərb Ermənistanı ”göydə tutacaq”.

**- Bəs İran?**

- İran bölgə siyasətində konstruktiv rol oynaya bilmir. Çünki riyakar siyasət yeridir. Ona görə də bölgədə ”aparıcı oyunçu” olmur. Amma region ölkələrinin, o cümlədən Rusiyanın, Türkiyənin, Gürcüstanın aktivləşməsi fonunda Tehranın da fəallaşması istisna deyil.

**Kənan Novruzov**

# O bizim sevdiyimiz Fulyadır




## "Səviyyəsiz və cahil adamların ara qarışdırmağa, su bulandırmağa cəsarət etmələrinə əsla yol verməк olmaz"

Vətən müharibəsi dövründə Azərbaycan müharibə ilə bağlı informasiyaların dünyaya çatdırılmasında mühüm rol oynayan "CNN-Türk" kanalının hərbi müxbiri Fulya Öztürk barədə sənədli film çəkiləcək. Filmin senari müəllifi və rejissoru Tahir Tahiroviçdir.

"Azərbaycanfilm" və "DADA Film Prodakşn"ın birgə istehsalı olan layihədə Fulyanın və kamera operatorunun çəkdiyi, yayımlanmamış 11 saatlıq video materiallardan istifadə ediləcək.

Çəkilişlər İstanbul, "CNN Türk"də başlayacaq, daha sonra Gəncə, Tərtər, Bərdə, Füzulidə davam edərək, Şuşada yekunlaşacaq.

Təəssüf ki, Vətən müharibəsində sözün əsl mənasında ürəyi Azərbaycanla olan qardaş ölkənin media təmsilçisi barədə çəkilən filmə tənqidi münasibət var. Bəziləri Fulya Öztürk haqqında film çəkilməsini düzgün hesab etmir. Maraqlısı budur ki, belə tənqidi fikirləri cəbhədə olmayan, müharibə faciələrinin canlı şahidinə çevrilməyən, o ağrıları dərisində yaşamayan media nümayəndələri səsləndirir. Təbii ki, bu münasibətin bir adı var: lazımsız, bir o qədər də utancverici qısqanclıq...

Öztürk haqqında filmin çəkilməsinə qarşı çıxanlar media nümayəndələrinin əksəriyyəti tərəfindən tənqidə tuş gəlib.

**"Türküstan" qəzetinin baş redaktoru Aqil Camal:**

Bu mövzuda neqativ münasibət sərgiləyənləri iki qrupa bölmək lazımdır. Biri, o qədər də məkrli məqsədi olmayan, sadəcə, şəxsi baxışını ifadə edənlər. İkincisi isə, məsələni Fulya üzərindən Türkiyəyə qarşı istifadə edən fürsətçilər. Hər iki qəbildən olanlar içərisində tanıdıqlarımız var. Mən birinci qəbildən olanların fikirlərinə görə çox təəssüf etdim. Onların bir çoxundan belə bir mövqe sərgilənməsinə inanmaq olmur, amma, oldu. Digər qismin yalançı "təəssübkeşliyi" isə bu mövzunu bayraq edib əslində Türkiyəyə, Türkiyənin Azərbaycandakı nüfuzuna hücum cəhdi idi. Onların yanaşmasında Fulya sadəcə, bir bəhanə olaraq seçilmişdi. Baxın, onlar nə deyir? "Fulya Azərbaycana iş yerindən aldığı yüksək maaş, qonorar, həmçinin, burada ona yaradılan hansısa komfort səbəbindən gəlmişdi". Eyni ittiham sizə tanış gəlmirmi? Araz Əlizadə və onun kimiləri demirdimi "Nuru Paşa, Qafqaz İslam Ordusu Azərbaycana pul qarşılığında, neft qoxusuna gəlmişdi". Eyni məzmunlu ittiham bu dəfə bir türkiyəli jurnalistin üzərindən irəli sürülür. Məqsəd Türkiyənin, türkiyəlinin etibarını toplumda zədələməkdir. Son 100 ildə Azərbaycanın 2 qalxınması olub. Hər ikisində arxamızda, yanımızda Türkiyəni, türk dövlətini gördük. Məhz bu səbəbdən, Cümhuriyyət qura, onun sərhədlərinə sahib ola bildik. Ən sonuncu isə 44 günlük savaşımızda Türkiyə dövləti və xalqı bütün gücü ilə - Cumhurbaşqanı, Müdafiə, Xarici işlər nazirləri, Bayrakdarı, 80 milyonluq xalqı ilə yanımızda, səngərimizdə gəlib dayandı. Bu baxımdan, türkiyəli fədakar bir jurnalistin əməyini kiçiltməyə göstərilən cəhdin arxasında əslində, Türkiyəyə hücum cəhdi dayanırdı. Amma Azərbaycan xalqının kəskin reaksiyası o zəhərli dilləri susdurdu.

**Tanınmış teletənqidçi, professor Qulu Məhərrəmli:**

"İkinci Qarabağ savaşının media qəhrəmanlarından biri olan Fulya Öztürk haqqında sənədli film çəkilməsi ilə bağlı ürəkbulandıran mübahisələrin predmeti aydın deyil. Biz nəyin üstündə mübahisə edirik? Şəxsən mən Azərbaycan media hadisəsi olmayan fədakar bir reportyor haqqında film çəkilməsini təqdir edirəm. Həmin filmin Tahir Tahiroviç kimi təcrübəli rejissora verilməsini də alqışlayıram!

Fikrimcə, "Fulya haqda niyə film çəkilir" sualı mübahisə predmeti ola bilməz. Amma "niyə bizdə olan reportyorlara yaxşı şərait yaradılmır, niyə mediamız ümumən asılı və fərsizdir, yaxud bizdə niyə yaxşı hərbi reportyorlar yetişmir" sualları üçün müzakirəyə həmişə açıqdır.

Mən eyni zamanda üzdə olan yaxşı reportyorlarımıza dəyər verilməsi kimi haqlı istəyi, müstəqillik dövrü mətbuat tariximizdə iz qoymuş Nəcəf Nəcəfov, Elmar Hüseynov, Çingiz və Vahid Mustafayevlər, Salatın Əsgərova və s. jurnalist-reportyorlarımız haqda film çəkilməsi ideyasını təqdir edirəm. Jurnalistikamızın indiki acınacaqlı durumunun ekranlara çıxarılması zərurətini deyənləri, büdcədən hər hansı film üçün vəsait ayrılarkən ictimai rəyin nəzərə alınmasını vacib sayanları da haqlı hesab edirəm".

**"525-ci qəzet"in baş redaktoru Rəşad Məcid:**

"Fulya Öztürklə bağlı müzakirələr nə qədər cahil və xəbis adamların feysbukda meydan suladığının növbəti təsdiqi oldu.

Elə bil, görünməz bir əl qəsdən suyu bulandırır, insanlar arasında bölücülük, ikitirəlik yaradır, kinküdurət toxumu səpir. Bəsit düşüncəli, həyasız adamlara indiki kimi münbit şərait heç vaxt olmayıb. Ağzına gələni de, kimə istəyirsən şər at!..

Bunun qarşısını inzibati yolla almaq mümkünsüzdür. Yüz il öncəki kimi yenə də mədəniyyət, maarifçilik, ədəb-ərkan toxumları səpilməlidir. Cahil, savadsız, naqis, kin-küdurət püskürən profillər cavabını anındaca almalı, tənbeh olunmalı, sərrast arqumentlərlə susdurulmalıdır.

Yoxsa süni şəkildə yaradılan bu eybəcər, ürək bulandıran abhavaya alışmaq, adət etmək vərdişi yaranacaq. Feysbukun saflaşmasına, təmizlənməsinə ciddi ehtiyac var. Səviyyəsiz və cahil adamların ara qarışdırmağa, su bulandırmağa cəsarət etmələrinə əsla yol verməк olmaz".

**Yeganə Bayramova**

# Daha Azərbaycandan xarici terrorçu qruplara qoşulanlar yoxdur

## "DTX-nin aktivliyi və peşəkarlığı, ayıq-sayıqlığı sayəsində müsbət vəziyyət yaranıb"

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib ki, Azərbaycandan xarici terrorçu qruplara qoşulanlar yoxdur. Komitə rəhbərinin sözlərinə görə, son aylar belə hal qeydə alınmayıb. Onun sözlərinə görə, hüquq-mühafizə orqanlarının, mətbuatın apardığı profilaktik, o cümlədən, ideoloji təbliğat işləri bunun qarşısını almaqda mühüm rol oynayıb:

"Xaricə gedən və bu cür terrorçu qruplara qoşulan şəxslərin ailə üzvləri reabilitasiyaya cəlb olunub. Həmin ailə üzvlərinin bir qismi gətirilib, təbii ki, orada uşaqlar və qadınlar da var. Bununla bağlı məxsusi reabilitasiya mərkəzi yaradılıb. Həmin reabilitasiya mərkəzində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin işçiləri də geriyə qaytarılmış ailələrlə dini sahədə işlərin aparılmasında iştirak edir. Burada dəqiq rəqəmləri deyə bilmərəm, amma Azərbaycanda az sayda bu cür hallar var idi".

M.Qurbanlı vurğulayıb ki, ümumiyyətlə, əvvəlki illərdə də İŞİD-in terror qruplaşmalarında iştirak edən xarici vətəndaşlar siyahısında bizim ölkə çox aşağı yerdə idi: "Azərbaycandan gedənlərin sayı başqa ölkələrdən gedənlərin sayı ilə müqayisədə çox az idi. Bizim ölkənin adı bəzən heç statistikaya aid edilmirdi".

Xatırladaq ki, bir neçə il öncəyə kimi davamlı müzakirə olunan məsələlərdən biri də Azərbaycandan İŞİD-ə qoşulanlar, terrorçuların arasında azərbaycanlıların da olması mövzusu idi. Təbii olaraq, bu məqam cəmiyyətdə böyük narahatlığa səbəb olurdu. Çünki qanunsuz yollarla Suriyaya, İraqa gedənlər öz ailələrini, uşaqlarını da aparırdılar ki, nəticədə təhlükənin miqyası daha da böyüyürdü. Bəzi şəxslər iddia edirlər ki, İŞİD kimi təhlükəli qruplar yenidən meydana çıxarsa, bitmiş hesab olunan məsələ təkrar gündəmə gələ bilər.

**İlahiyyatçı Tural İrfan "Şərq"ə açıqlamasında Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının fikirləri ilə razılaşdığını deyib.** Ekspertin fikrincə, həqiqətən, son zamanlar Komitənin fəaliyyəti, o cümlədən İlahiyyat İnstitutunun yaradılması kimi amillər vətəndaşların dini cəhətdən maarifləndirilməsinə gətirib çıxarıb. Ən önəmlisi isə məlum İŞİD terror təşkilatının fəaliyyətinin sıradan çıxarılmasıdır: "İslam dünyasında baş verən istənilən münaqişə digər müsəlman xalqına da təsirsiz ötüşmür. Suriya savaşının qızğın dövründə müxtəlif təsirlərə düşən, dini savadı zəif olan, sosial problemli bəzi şəxslər adı çəkilən ölkəyə savaşmaq üçün, radikal dini qruplarda iştirak etmək üçün gedirdi. Bunun qarşısının alınmasında Azərbaycanın Dövlət Təhlükəsizlik Xidmətinin də burada böyük və həlledici rolunu danmaq olmaz. Çünki xaricdəki radikal qruplarda iştirak edənlərin müəyyən olunması, nəzarətə götürülməsi, ölkəyə gətirilərək cəmiyyətə yararlı vətəndaş kimi bərpa edilməsi məhz təhlükəsizlik orqanlarının işidir. DTX-nın aktivliyi və peşəkarlığı, ayıq-sayıqlığı sayəsində Mübariz Qurbanlının dediyi müsbət vəziyyət yaranıb. Ancaq heç kimə deyə bilməz ki, yenidən dünyada və ya bölgədə İŞİD kimi terrorçu təşkilatlar yaranarsa, ora qoşulan vətəndaşlarımız olmayacaq. Buna kimsə qarantiya verə bilməz".




"Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinə daha çox səlahiyyətlər verilməli və Qafqaz Müsəlmanları İdarəsinin ixtiyarında olan məscidlərə imam təyinetmə səlahiyyəti alınmalıdır"

**İlahiyyatçı təəssüflə qeyd edib ki, Qafqaz Müsəlmanları İdarəsinin fəaliyyəti, daha doğrusu, fəaiyyətsizliyi sayəsində bu cür mənfi hallar meydana gəlir:** "Bu idarə vətəndaşların dini maarifçilik və ənənəvi islam dəyərlərinə sadiqliyini ən azından təbliğ etməlidir. Əfsuslar olsun ki, QMİ-nin fəaliyyəti ancaq yas biznesi və xurafat yaymaqdır. Belə olduqda isə hər bir insanın fitri ehtiyacı olan din inancının yerini həmin o radikal qrupların təbliğ etdiyi fikirlər doldurur. Nəticədə zaman-zaman radikal qruplara qoşulanlar olur. Düşünürəm ki, bir daha belə halların olmaması üçün Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinə daha çox səlahiyyətlər verilməli və Qafqaz Müsəlmanları İdarəsinin ixtiyarında olan məscidlərə imam təyinetmə səlahiyyəti alınmalıdır. Çünki məscidlərə xaricdə dini təhsil adı altında siyasi, xurafatçı təsirlərdə yetişən "axund" və "imamlar" təyinat alırlar. Sanki insanlar öz məscidlərində tapmadıqlarını başqa yerdə aramağa meyillənirlər. Nəticədə radikal, ya da xurafatçı qruplara qoşulurlar".

**İsmayıl Qocayev**



Vətən müharibəsinin və düşmən üzərində qazandığımız böyük Zəfərin üzərindən aylar keçib. Bu müddət ərzində Qarabağ ətrafında, regionumuzda kifayət qədər ciddi proseslərin şahidi olmuşuq. Ölkə daxilində də önəmli ictimai-siyasi olaylar yaşanıb. İl yarımdır öz məngənəsində bizi sıxan, sıralarımızı seyrəldən koronavirus bəlasından da yavaş-yavaş xilas olmağa, "canlanmağa" başlamışıq. Yeni gündəmdə müzakirəyə, daha doğrusu, sağlam yanaşmaya "ehtiyac duyan" xeyli məsələlər var. Baş verən proseslər ətrafında "Şərq"in budəfəki müsahibi tanınmış yazar, şair, publisist Aqşin Yeniseydir. Hadisələrə hər zaman özünəxas baxışı olan şairlə Vətən savaşından sonrakı proseslər, həmçinin, ədəbi mühitin mövcud durumu haqqında geniş söhbət apardıq..

# “Sənət daha dərin duyğulardan güc alır”

## Aqşin Yenisey: “Biz heç vaxt erməni ilə müharibədən böyük ədəbiyyat yaratmayacağıq”

**- Aqşin bəy, pandemiya ilə bağlı xeyli yumşalmalar oldu, məhdudiyyətlər aradan qalxdı. Həyatımızda normala dönüş hiss olunurmu? Bəlanı arxada qoyduq deyə bilərikmi?**

- Tarixin bütün dövrlərində pandemiyalar uyğun peyvəndin kəşfi ilə başa çatıb. Artıq bu ”yarasa supu”nun da peyvəndi əlimizdədir. Xəstə sayında artıb-azalmalar olsa da, Qazan xanın sözü olmasın, ”düşməni yenilmiş saymaq olar”. Ailəmizdə həkim olduğu üçün evdə gedən söhbətlərdən belə başa düşürəm ki, dünya əhalisinin 75-80 faizi peyvənd olunandan sonra pandemiya mövzusu gündəmdən düşəcək.

**- Qələbədən 8 aylıq zaman ötüb. Müharibə dövründəki abhava, əhval-ruhiyyə, günlərlə danışdığımız həmrəylik yoxa çıxbmı? Müşahidələrinizlə hansı qənaətə gəlmisiniz?**

- Qarabağın işğalı bu illər ərizində həllini gözləyən o qədər problemi üst-üstə yığıb ki, insanlar 44 günlük Vətən müharibəsindən ”sehrli çubuq” gözləyirlər. Madam ki, Qarabağ işğaldan azad olundu, dərhal təhsildəki, səhiyyədəki, sənətdəki, nə bilim, gilasın qiymətindəki problemlər də həll olunsun. Azərbaycanda sovet sistemi hələ indi-indi çökür. Amma bir məsələ var ki, bu gün Azərbaycanın diqqətini daxili problemlərə çəkmək cəhdlərinin çoxu daxili tələbatdan qaynaqlanmır. Əksinə, daxildəki enerji daha çox xarici münasibətlərdəki çalxalanmalar hərəkətə gətirir. Müşahidələrim əsasında deyə bilərəm ki, Azərbaycan xarici problemlərini həll etmədən daxildə heç bir inkişafa nail ola bilməz. Daxili mühitin bulanıqlığı xaricdən qidalanır. Ölkəyə çirkab axıdan çaylar qurudulmayınca heç bir daxili problem həllini tapmayacaq. Həmrəyliyə gəlincə, müharibə vaxtı həmrəylik nə qədər önəmlidirsə, sülh şəraitində həmrəylik bir o qədər önəmsizdir. Sülh dövrünün həmrəyliyi monotonluq yaradır, üzgörənlik yaradır. Bu gün Azərbaycan bürokratiyası bir ”metal yorğunluğu” içindədir. Bu da bürokratik həmrəyliyin nəticəsidir. Sülh dövrünün həmrəyliyi həqiqətin düşmənidir. Sülh dövrünün həmrəyliyi daha çox ört-basdır xidmətidir. Keçmiş sovet imperiyası həm də bu ideoloji ört-basdır həmrəyliyinin qurbanı oldu. Şumer şəhər dövlətləri nə qədər ki, biri-birləri ilə döyüşürdülər, dünyaya meydan oxuyurdular, elə ki həmrəy oldular, yox oldular. Bu gün bunu hiss edən Avropa mədəniyyəti öz içində ziddiyyətlər axtarır. Bugünkü Türkiyəni güclü edən daxili rəqabət, dartışma mühitidir. Əgər biz vətəndaş cəmiyyəti qurmaq istəyiriksə, fikrin, şüurun həmrəngliyinə deyil, rəngarəngliyinə can atmalıyıq. Rolan Bart Qərb mədəniyyətində forma müxtəlifliyinin yaranmasını burjua şüurunun parçalanması, dağılması ilə izah edir. Burjua şüuru parçalandı, yeni şüur növləri doğuldu, onlar da öz formalarını yaratdılar. Yəni Qərbdə bir ”Şüur partlayışı” baş verdi. Böyük və tək şüur minlərlə irili-xırdalı şüura parçalandı. Yəni forma müxtəlifliyi şüur müxtəlifliyinin nəticəsi kimi yarandı. Və bu müxtəlifliyi ayaqda tutmağın yeganə yolu hər bir şüur formasının təmsil olunduğu bir sistem qurmaq idi. Bu da demokratik sistemdir. Qərbin uğurunu, məncə, burada axtarmaq lazımdır. Şərqdə bu şüur partlayışı baş verməyib. Biz eyni şüurun ayrı-ayrı formalarıyıq. Bizi bir-birimizdən bezdirən də bu şüur həmrəyliyi, düşüncə həmrəngliyidir. Hər yer özümüzlə doludur.

**- 44 günlük savaş və Zəfər Azərbaycan ədəbiyyatına necə sirayət etdi? Yaşadıqlarımız tam anlamıyla ədəbi sferaya daşına bildimi?**

- 44 günlük müharibə Azərbaycanda hərb kultunun dəyərini artırdı. Bu gün bu kultu beşikdəcə boğmaq üçün ordunu, əsgəri, qazini, hətta şəhidi belə gözdən salan xeyli ciddi propaqandalar aparılır. Məqsəd nə yolla olur-olsun Azərbaycanda hərbi aristokratiyanın yaranmasına imkan verməməkdir. Təəssüf ki, savadsızlıq, avamlıq ucbatından əhalinin bir hissəsi də bu çirkin təbliğata kor-koranə xidmət edir. Azərbaycan ədəbiyyatına gəlincə, biz heç vaxt erməni ilə müharibədən böyük ədəbiyyat yaratmayacağıq. Ermənilər uzun illər türk xalqlarının arasında etnik bir xalq kimi yaşayıblar. Tarixin heç bir dönəmində döyüş meydanında türklərin qarşısında tərəf kimi çıxış etməyiblər, hətta lokal qarşıdurmalarda belə erməni alət kimi istifadə olunub. Xristianlar Osmanlını parçalamaq üçün bu xalqdan mina kimi yararlandılar. Sonra ruslar bu ”mina”nı aparıb Qafqazda basdırdılar. Sənət isə daha dərin duyğulardan güc alır, istər sevgi olsun, istər nifrət. Erməni Azərbaycan ədəbiyyatını yaradan duyğular üçün düşmən sayılacaq qədər böyük obraz deyil. Ümumiyyətlə, türk ədəbiyyatında erməni yazıq, üzüyola xarakteri ilə məşhurdur, bir də fahişəxana saxlayan qadınları ilə. Maraqlananlar türk tarixçi Murad Belgenin ”Ermənilər ədəbiyyatda” kitabını oxuya bilərlər.



“Ermənilər uzun illər türk xalqlarının arasında etnik bir xalq kimi yaşayıblar. Tarixin heç bir dönəmində döyüş meydanında türklərin qarşısında tərəf kimi çıxış etməyiblər”

**- Hesab edirsiz ki, müharibəni, daha doğrusu, ermənilər üzərindəki qələbəni ədəbiyyata gətirmək mütləq deyil? Bəlkə hansısa yazarın qələmindən şedevr ”doğulacaq”...**

- Müharibədə şəxsən iştirak edən şair və yazıçılarımız var. Məsələn, Emin Piri. Yəqin ki, müharibəni gözləri ilə görənlər bunu nə vaxtsa əsərləşdirəcəklər. Umberto Ekonun bir düşmənə sahib olmanın bir xalq, bir dövlət üçün hansı əhəmiyyəti daşıdığını izah edən bir essesi var. Ekoya görə, hər hansı bir xalq, toplum düşmən sahibi olmaqla öz kimliyini yaradır və qoruyur. Milli kimliklərimizin formalaşmasında həm də düşmənlərimizin rolu var. Düşmən, sadəcə, milli kimliyimizi tanımaq üçün bir ölçü deyil, həm də dəyərlər sistemimizin, milli narrativlərimizin gücünü bilmək, hər hansı bir problemlə üzləşərkən onu aşa bilib-bilməyəcəyimizi öyrənmək üçün önəmlidir. Düşmən bizə öz gücümüzü, milli potensialımızı qiymətləndirməkdən ötrü lazımdır. Eko bu essesində iddia edir ki, hətta düşmənimiz olmasa belə, onu yaratmalıyıq. Düşməni olmayan xalq tarix səhnəsini çox tez tərk edir. Bunu hiss edən amerikalılar ”Soyuq müharibə”dən sonra dərhal Bin Ladeni yaratdılar, deyir Eko. Amma mən inanmıram ki, erməni uzun müddət bizə düşmən kimi ”lazım olacaq”. Çünki biz bilirik ki, erməni siyasi muzdurdur. Ədəbiyyatımızın ona münasibəti də bir əfəndinin bir muzdura münasibəti kimidir. Bizə daha böyük və layaqətli ”düşmənlər” lazımdır. Ermənilərin ədəbiyyatımızda bir düşmən görüntüsü isə, fikrimcə, Aqil Abbasın ”Dolu” romanından o yana keçməyəcək.

**- Qələm əhlinin işğaldan azad edilmiş ərazilərlə bağlı xeyli arzusu, planı var. Ən azından tezliklə Qarabağa ayaq basmağa tələsirlər. Sizin xəyallarınız nədir? Məsələn, Qarabağa köçməyi, yaxud Şuşada şer yazmağı düşünürsüzmü?**

- Uzun müddətdir ki, sujetlərdən biri Asiyadan Qarabağa gətirilən, özlərini ”Nuhun oğulları” adlandıran (xatırladım ki, ari irqinin tör-töküntüsü olan ermənilər də özlərini Anadolu xalqları kimi Nuh peyğəmbərin nəvələri hesab edirlər) bir köçün əhvalatı olan bir roman yazıram. Səhra ilğımından çıxıb dağ-dumana girən və sözün hər mənasında yolunu azan, bunula da tarixdə itkin düşən bir köç. Qarabağla bağlı yeganə planım bu romanı maraqlı yazıb bitirməkdir. Başqa heç bir arzum yoxdur.

**- Sizcə, son dönəmlərdə baş verən mühüm proseslər ədəbi camədə canlanma yaratdımı?**

- Deməzdim. Birincisi, ona görə ki, mədəniyyətimizin digər sahələri kimi ədəbiyyatımız da artıq bitkisəl, vegetativ həyat yaşayır. Yəni nə ölüdür, nə diri. Reanimasiya xəstəsidir. Bəlkə də ölüb, etiraf etməyə qorxuruq. Qarabağın 30 illik işğalı əxlaqımızla yanaşı, mədəniyyətimizə də ağır zərbə vurdu. Əxlaq, mədəniyyət çürüdüsə, hələm-hələm özünə gələ bilməz. İkincisi, hamı kimi ədəbiyyat, sənət adamları da hazırlıqsız yaxalandı bu qələbəyə. Hətta mənə elə gəlir ki, cəmiyyətimiz hələ də bu ”ildırımsürətli” qələbənin şokundan tam ayılmayıb. Biz indi ”Sonuncu şam yeməyi” əsərini çəkmək ərəfəsində həftələrlə ağ kətanın qarşısında oturub haradan başlayacağını bilməyən Da Vinçiyə bənzəyirik. Hələ prosesin emosional aydınlanma dövründəyik.

**- Ötən günlərdə iki gəncin kitab oğurlaması geniş müzakirəyə yol açdı. Cəmiyyət iki hissəyə bölündü. Bir qisim gənclərə kitab oğrusu dedi, digərləri isə onlara heykəl qoyulmasını təklif etdi. Yazar kimi bu hadisəyə münasibətiniz necədir?**

- Baş verən kitab oğurluğu hadisəsinə hüquqi müstəvidə baxmaq cəmiyyət olaraq bizlik deyil. Çünki hər min nəfərə oxunan kitab sayına görə heç Allah da bilmir ki, biz dünyada neçənci yerdəyik. Mən bu kitab oğurluğuna mədəni, tarixi perspektivdən baxmağın tərəfdarıyam. Çünki bizdə kitabın taleyi məhz mədəni, tarixi baxımdan qiymətləndirilməmiş məsələlərdəndir. Hüquqi qiymətə qalsa, kitabı oğurlanan Dantenin özü cavan vaxtı dələduzluq maddəsi ilə Florensiyadan sürgün edilmişdi. Bizdə kitaba qarşı, əsasən, iki total münasibət aktualdır. Ya kitabdan qorxuruq, ya da onu fitə basırıq. Yəni biz kitab oğurluğuna, nə bilim, Prometeyin odu oğurlayıb insanlara gətirməsi kimi baxmalıyıq. Yaxud bu işi yəhudilərin sumer kitabələrini özününküləşdirib daha da təkmilləşdirməsi kimi gözdən keçirməliyik. Ya da bəzi avropalıların İbn Rüşdün sonradan Renesansın, maarifçiliyin, modernizmin əsası olacaq yandırılan kitablarının nüsxələrini əkişdirib saxlaması kimi sevinməliyik. ”Kitab oğurluğunu, az qala, müqəddəsləşdirməliyik, populyar mədəniyyətə çevirməliyik” deməkdən özümü güclə saxlayıram. Vatikanın məşhur kitabxanasının, bəlkə də, yarısı ”məbəd cəngavərləri”nin Şərqdən, Asiyadan oğurlayıb apardıqları qədim kitablardır. Türkiyə yəhudisi, tarixçi-alim Rıfat Bali Türkiyə kitabxanalarından əkişdirilən, yoxa çıxan nadir kitabların uzun bir siyahısını hazırlayıb özünün ”Bir soyğunun, bir talanın hekayəsi” kitabında. Bu siyahıda şah Təhmasibin ”Şahnamə”sindən tutmuş imam Əlinin əlyazmasına qədər nə cür dəsəniz əsərlərin adları var. Yoxa çıxan bu kitabların bir çoxu sonradan Avropa muzeylərində, aksionlarında göründü. Bəziləriniz özünü elə aparır ki, sanki Azərbaycanda cəmi iki oğru var, onlar da ancaq kitab oğurlayırlar.

**(Davamı səh.9)**



## “Sənət daha dərin duyğulardan güc alır”

### Aqşin Yenisey: “Biz heç vaxt erməni ilə müharibədən böyük ədəbiyyat yaratmayacağıq”

(Əvvəli səh.8)

**- Qarabağ ətrafında cərəyan edən gərgin prosesləri izləyirsizmi? Narahatlıq duyduğunuz məqamlar varmı?**

- Ermənilərin Qafqaza köçürülməsi tarixindən bu günə qədər ilk dəfədir ki, proses əksinə baş verib. Yəni biz bizdən alınanı geri almışıq. Bu davranışı bir dövlətçilik strategiyasına çevirmək lazımdır. 2500 il əvvəl Çin generalı Sun Tzu ”Müharibə sənəti” kitabında yazırdı ki, qələbə müharibədən öncə qazanılır. Və bunun yolunu öyrədirdi çinlilərə. Bu yol siyasət idi, diplomatiya idi. Qarabağa aparan yolun təkcə döyüş yolu olmadığını ağıllı adamlar, onsuz da, bilirdilər. Biz Qarabağı döyüş meydanında yox, siyasət meydanında uduzmuşduq. Biz döyüş meydanında yox, siyasət meydanında əliyalın idik, yiyəsiz idik, həm də Qacardan üzü bu yana. Cəsarəti ağıldan üstün tuturduq, avam olduğumuz üçün cəsarətin çox vaxt tarixdə yalnız taktiki uğurlar üçün keçərli olduğunu, strateji uğurların ağılla qazanıldığını bilmirdik. Çünki bu müstəmləkə illərində tarixi deyil, cari uğurların peşindəydik. Abırsız adamlardan fərqli olaraq, abırlı adamların gələcəyə ümidi itmişdi. Çünki iki yüz ilə yaxın idi ki, biz bu meydanda qanımızın deyil, ağlımızın azlığından uduzurduq. Prezident öz siyasəti ilə təkcə Qarabağı düşməndən deyil, elə Azərbaycanı da öyrəşdiyimiz o cari azərbaycançılığın ”işğalından” azad etdi. Yeganə qorxum azərbaycanlıların yenidən öz cariliklərinə yenilməsidir. Strateji deyil, taktiki uğurların peşinə düşməsidir. Bostan deyil, qarpız davası etməsidir.

**- Tarixi əhəmiyyət kəsb edən Şuşa Bəyannaməsi ilə bağlı da fikirləriniz maraqlıdır. İndiki məqamda qardaş Türkiyə ilə həmrəylik nə qədər mühümdür?**

- Adım şair kimi hallansa da, heç vaxt emosionallığın, sentimentallığın tərəfdarı olmamışam. Bu hadisəyə ”Turana gedən yolun başlanğıcı” deyib indidən tozanaq qoparmaq istəmirəm. Bu gün bütün sahələrdə Azərbaycanı peşəkarlarla təmin edən ölkə Türkiyədir. Səhiyyə, sənaye, tərcümə ədəbiyyatı, hərbi mütəxəssislər və s. Müasir dünyada peşəkarlar olmadan heç bir sahədə uğur qazanmaq olmaz. Qarabağı 44 günə azad edən də peşəkar ordu idi ki, bu ordu Türkiyənin köməkliyi ilə yaradılıb. Ona görə də bu həmrəylik bütün sahələri əhatə etməlidir. Yalnız bundan sonra daha böyük ideoloji işlərə girişmək olar. Amma Şuşa Bəyannaməsini heç bir halda başımızın altında yastıq kimi hiss etməməliyik.

**İsmayıl Qocayev**

# “Oxumaq heç vaxt gec deyil”

## Aynur İbrahimovanın təşəbbüsü ilə təhsildən kənar qalan ailəli xanımlar ali məktəblərə hazırlanır





*Ucarda bir müəllimə qeyri-adi layihə həyata keçirir. O, şagirdlərinin valideynlərini də ali təhsil almaq üçün hazırlaşdırır. Onun layihəsinə qoşulan digər fənn müəllimləri də var. Onlar övladları kimi parta arxasına oturub universitetə hazırlaşırlar. Bu vaxta qədər ali təhsil ala bilməyən valideynlər indi həvəslə çalışırlar. Aynur İbrahimova Ucarın Təzə Şilyan kəndində müxtəlif səbəblərdən təhsildən kənar qalan xanımların yenidən tədrisə cəlbi ilə bağlı layihə ərsəyə gətirib.*

”Oxumaq heç vaxt gec deyil” layihəsi ilə valideynləri ali məktəblərə hazırlayır. Aynur Ibrahimovaya dəstək olan digər həmkarları da var.

**Layihə barədə daha ətraflı məlumat almaq üçün təşəbbüskar müəllim Aynur İbrahimova ilə söhbətləşdik. O, ”Şərq”ə açıqlamasında bir sıra məqamlara toxunub. Aynur xanım bildirib ki, o, həmin kənd məktəbində 8 ildir ki, müəllim işləyir:** ”Özüm Göyçaydan Ucarın kəndinə gedirəm və uşaqlara dərs deyirəm. Həmin kəndə ilk dəfə gedəndə baxırdım ki, orda xanımların təhsil almasında bir çox problemlər yaranır. Həmin kənddə 8-ci, 9-cu, hətta 7-ci sinifdə nişanlanan qızlar var idi. Lakin dərs deyəndə bəzi qızlar oxumaq istədiklərini, lakin atalarının onlara icazə vermədiyi deyirdilər. Təbii ki, həmin şagirdlərin evlərinə gedirdik və valideynlərlə söhbətlər aparırdıq. Düzdür, mübarizədə qalib gəldiyimiz məqamlar da var idi. Qeyd edim ki, məktəbdən çıxarılma təhlükəsi olan xanımlar sevindirici haldır ki, hazırda tələbədirlər. Univerisitetdə, kollecdə təhsil alırlar. Həmin kənddə qızlar çox gözəl şəkildə dərslərə qatılırlar. Düzdür, faiz təbii ki, qala bilər, ancaq bu problem müəyyən qədər həll olunub. Təhsil almayan xanımların probleminin kökündə valideyn müdaxiləsi, erkən nikaha cəlb olunma və maddi imkansızlıq dayanır”.

**A.İbrahimova vurğulayıb ki, hazırda dərsə qatılan xanımların demək olar ki, hamısı ailəlidir:** ”İçərilərində subay xanım yoxdur. Onu da qeyd edim ki, məni bu addımı atmağa vadar edən səbəb onların uşaqlarının müəllimiyəm. Onlar əvvəllər tez-tez əlaqə saxlayardılar və övladları haqqında məlumat alırdılar. Mənə hər zaman bir söz deyirdilər: ”Müəllimə, mən istəyirəm ki, reallaşmayan arzumu övladım həyata keçirsin. O qədər istəmişəm ki, həkim olum, yaxud da ki, müəllim olub. Amma ola bilməmişəm. Çox istəyirəm ki, övladım davam etdirsin”. Deyirdim ki, niyə siz olmayasınız? Deyirdilər ki, müəllimə, bundan sonra gecdir. Biz necə təhsil ala bilərik? Düşünürdüm ki, onları yenidən təhsilə cəlb edim? Fikirləşdim ki, bu layihəni məktəb bağlanana yaxın edim. Çünki heç bir yerdən maddi baxımından dəstək yoxdur. Düşündüm ki, bunu məktəbin həyətində də olsa biz başlayaq. Sonra zamanla biz virtual da olsa dərslərimizi davam etdirə bilərik. İlk əvvəl tək idim. Heç bir müəllim yox idi. Daha sonradan bu layihəni eşidən digər fənn müəllimləri də müsbət qarşıladılar və onlar da qoşuldular. Beləliklə, bizim qrup böyüdü. Artıq Ucarın digər kəndlərindən də dərsə qoşulmaq istəyənlər var. Hətta Xaçmaz, Şəki, Cəlilabad, Kürdəmirdən qoşulan müəllimlər var. Ən yaşlı şagirdin 46 yaşı, ən kiçiyinin 24 yaşı var. Hər ikisi iki övlad anasıdır. Valideynlər içərisində nənə olanlar da var. Hətta əsgər anası da. Elə valideynlər var ki, dərsə övladları ilə birgə qoşulur. Dərsə qoşulanlara qayınataları, yoldaşları dəstək olanlar da var. Mən onların ailələrindən bu qədər dəstək olacağını sözün düzü gözləmirdim. Ən əsas məqsədimiz budur ki, şagirdlərimizin valideynləri savadlı olsun, təhsilli olsun. Çünki o zaman şagirdlər də savadlı olacaq, təhsilli olacaq. İkincisi isə təkbaşına övladlarını böyüdən analarımız var. Məqsədimiz odur ki, həmin analar övladlarına dəstək ola bilsinlər. Həm maddi baxımdan, həm də mənəvi cəhətdən. O xanımları sevə-sevə, rəğbətlə qrupumuza qəbul etmişik ki, onlar həm güclü olsunlar, həm də ki, yarım qalan arzularını reallaşdıra bilsinlər”.





**Təşəbbüskar layihədə tədris olunan fənlərdən də söhbət açıb:** ”Hazırda valideynlərə Azərbaycan dili, riyaziyyat və xarici dil fənni öyrədilir. Daha sonra onlar seçdikləri ixtisasa uyğun olaraq digər fənlərə də cəlb ediləcəklər. Tam olaraq universitetə, kollecə qəbul olana qədər biz onlara dəstək olacağıq. Çox istərdim ki, hər bölgədə müəllim qrupları yaradılsın. Buna təşəbbüs də göstərəcəm. Qarşımda bir məqsəd də var ki, hətta evi olmayan, sığınacaqlarda qalan qadınları da bu layihəyə cəlb edək. Qeyd edim ki, bu layihədən əvvəl başqa bir layihəm də var idi. O, uşaq evindəki qızlarla bağlı idi. Yəni uşaq evindəki qızlarımızı da təhsilə cəlb etmişdik. Bu layihə də onun davamıdır. Qeyd edim ki, valideynlərin hazırlığı təmənnasızdır. Hətta onlar arasında rəqabət olsun deyə, hər mövzunun sonunda yaxşı nəticə göstərən valideynlər mükafatlandırılacaqlar ki, daha çox həvəslənsinlər. Təbii ki, bütün bunların hamısı bizim öz hesabımızadır. Mənim bir istəyim odur ki, oxusunlar, yaxşı nəticə əldə etsinlər. 40 yaşından yuxarı qadınlar var ki, qoşulmaq istəyirlər, amma çəkinirlər. Hesab edirəm ki, bizim nəticəmiz yaxşı olduqdan sonra çəkinən xanımlar da ürək edəcəklər və dərslərə qoşulacaqlar. Nəhayət ki, bu layihə ilə təhsil almaq istəyib təhsildən geri qalan xanımlarımız da istəklərinə nail olacaqlar. Hazırda əyani dərslərimizə 9 xanım qoşulub. Tibb sahəsi ilə, müəllimliklə maraqlananlar var. Say etibarilə müəllimliyi seçmək istəyənlər daha çoxdur. Bir məqamı da qeyd edim ki, hətta xanımların övladları da analarının dərslərdə iştirakını müsbət qarşılayırlar. Kürdəmirdən gələn valideyn övladı bildirirdi ki, anamın qəbul olacağına inanıram. İnanırsınız, övlad anaya stimul verir. Bu bizi həqiqətən də çox sevindirir. Çox istərdim ki, Təhsil Nazirliyi də bu layihəyə dəstək versin. Çünki təhsil ala bilməyən o qədər xanımlarımız var. Onların təhsili olsa, inanın ki, bu, bizim təhsilimizin keyfiyyətinin artmasına və inkişafına səbəb ola bilər. Buna görə də Təhsil Nazirliyindən dəstək gözləyirik ki, bu layihəni dəstəkləsinlər. Çox yaxşı olardı ki, bu layihə ictimailəşdirilsin. Bölgələrdə müəllim qrupları yaradılsın və dərslərin keçirilməsi üçün yer, məkan yaradılsın. Ümumiyyətlə, Təhsil Nazirliyi qəbul olan valideynlərə dəstək olarsa, çox gözəl olar”.

**Aynurə Pənahqızı**

# Mövcud rejim dəyişmədi

## *Rəisinin seçilməsindən ABŞ və Qərb narazıdır*

İranda 13-cü prezident seçkisi başa çatdı və ilkin nəticələr cəmiyyətə açıqlandı. Seçkidə mühafizəkar qanadın namizədi İbrahim Rəisi qalib oldu. Seçki Qərargahının rəhbəri Camal Orf İbrahim Rəisinin səsvermədə iştirak edən 28,6 milyon seçicidən 17,8 milyonunun səsini aldığını açıqladı.



"Yeni prezidentin dövründə İran maliyyə baxımından Çindən daha asılı hala gələcək"

Rəisinin seçkilərdə qələbə çalacağı əvvəldən gözlənilsə də, seçicilərin 63 faizinin səsini qazanması sonradan namizədliklərini geri çəkən Əlirza Zakani və Səid Cəlili ilə əlaqədardır. Məsələ ondadır ki, seçkidə 7 namizəd qeydə alınsa da, daha sonra onlardan 3-ü namizədliyini İbrahim Rəisinin xeyrinə geri götürdü. Hər iki namizədin öz tərəfdarlarını seçkidə İbrahim Rəisiyə səs verməyə çağırması onun səs faizini çoxaltdı. İranın yeni Prezidenti İbrahim Rəisi 1960-cı ildə Məşhəd şəhərində anadan olub. İxtisasca hüquqşünas olan Rəisi 1979-cu il inqilabdan sonra Kereç prokuroru vəzifəsinə təyin olunub. Qısa müddətdən sonra Tehranda Baş prokurorun müavini təyin edilib. 1988-ci ildə İranın Ali dini rəhbəri Xomeyninin göstərişi ilə həbsdə olan rejim əleyhdarlarının edam edilməsi məqsədilə qurulan komitəyə üzv təyin olunub. Rejim əleyhdarları tərəfindən "ölüm komitəsi" adlandırılan 4 nəfərlik nümayəndə heyətinin rəhbəri olan İbrahim Rəisi müxaliflər tərəfindən "Qatil ayətullah" ləqəbilə tanınır. O dövrdə təxminən 3 min nəfərin edam edildiyi barədə mətbuatda məlumatlar yayılıb. Xamenei dövründə də Rəisi dövlət vəzifələrində sürətlə yüksəlib. 2014-cü ildə İranın baş prokuroru vəzifəsinə təyin olunan Rəisi Xamenei tərəfindən 2016-cı ildə Məşhəddə yerləşən və büdcəsi milyardlarla dollar olan "İmam Rza Ziyarətgahı" Xeyriyyə Fondunun sədri təyin edilib. Siyasi məhbusların edamında və 2009-cu ildə ölkədə baş qaldıran etirazlara sərt şəkildə müdaxilə etdiyi üçün 2019-cu ilin noyabr ayında ABŞ Rəisi barəsində sanksiya qərarı verib. İnqilab Keşikçiləri Ordusu tərəfindən dəstəklənən Rəisi Xameneinin "varisi" olaraq tanınır.

**İrandakı seçkinin nəticələrini "Şərq"ə analiz edən politoloq Turan Rzayev deyib ki, Rəisi İrandakı mövcud rejimə sadiq bir şəxsdir. Analitikin sözlərinə görə, milliyyətcə fars olması və mühafizəkarlığın pik həddə olduğu Məşhəd şəhərində anadan olması onun prezidentlik dövründə nələr edəcəyini az-çox təxmin etməyimizə səbəb olur:** "Rəisinin rəhbərliyində İranın Ruhani dövründən fərqli olacağını düşünmürəm. Xüsusilə də onun İrandakı mövcud teokratik rejimə sadiq olması rejimin öz mövqelərini daha da möhkəmlətməsinə səbəb olacaq. Düzdür, islahatçılardan kiminsə hakimiyyətə gəlməsi də mövcud rejimə təsir etməyəcəkdi. Çünki İran siyasi sistemində prezidentliyə namizədi Konstitusiya Himayəçiləri Şurası (KHŞ) təsdiqləyir. Şuranın üzvlərini isə İranın ali dini lideri təyin edir. Yəni əslində prezidenti seçən İranın ali dini lideridir".

*Ekspertə görə, Rəisi dövründə İran xarici siyasəti əsasən belə olacaq:* "Birincisi, Rəisinin prezident seçilməsindən ABŞ və Qərbin narazı qalacağı bəllidir. Çünki rəsmi Vaşinqton ümid edirdi ki, islahatçı qanadın bir namizədi seçkilərdə qələbə qazanacaq və İranla nüvə razılaşması başda olmaqla, bəzi prioritet məsələlər ətrafında razılığa gəlinəcək. Lakin Rəisinin mühafizəkar qanaddan olması və mövcud rejimin maraqları çərçivəsində hərəkət etməsi ABŞ-İran, dolayı yolla Qərb-İran münasibətlərində gərginliyin davam edəcəyini göstərir. İran çətin ki, ABŞ-la nüvə razılaşmasına getsin. Bu da nəticədə ABŞ və Qərbin İrana yeni iqtisadi sanksiyalar etməsinə gətirib çıxaracaq. Bundan əlavə, fars körfəzində də yenə ABŞ-İran hərbi donanmasının sürtüşməsinin şahidi ola bilərik. İkincisi, Rəisinin dövründə İranın Yaxın Şərq siyasətində yenidən aktivlik müşahidə edilə bilər. İranın bir müddətdir sangiyən "Şiə Hilalı" siyasəti Rəisi ilə birlikdə yenidən aktivləşə bilər. Hətta bu istiqamətdə Tehranın İraq, Livan, Suriya, Yəmən və Fələstində maliyyələşdirdiyi şiə ideologiyalı radikal qruplaşmalar yenidən aktivləşə bilər. Fələstin mövzusu yenə əsas prioritet olaraq qalacaq. Yəni yaxın növbəti bir il ərzində İsrail-Fələstin gərginliyinin şahidi ola bilərik. İsrailin yeni Baş naziri Naftali Bennet ilə İbrahim Rəisinin bu məsələdə necə bir addım atacağını isə hər halda qarşıdakı zaman göstərəcək".

**T.Rzayev Rəisi dövründə İranın maliyyə baxımından Çindən daha da asılı hala gələcəyini düşünür:** "Rəsmi Pekin onsuz da region ölkələrinə böyük miqdarda investisiya yatırır. Əvəzində isə bu ölkələrin tədricən xarici siyasətində söz sahibi olur. Bənzər proses uzun müddətdir Rusiya ilə də gedir. Bu mənada Rəisi dövründə Çinin İrana investisiya yatırımı davam edəcək və İran bunu ehtimal ki, iki sahəyə - Uranın zənginləşdirilməsi və silahlanmaya xərcləyəcək. Beləcə rəsmi Pekin Qərb ilə arasında Rusiya kimi İran səddini də qoruyub saxlaya biləcək.

Digər tərəfdən, İranın ən azından hərbi müstəvidə güclənməsi Çinin maraqlarına uyğundur. Çünki bu zaman Vaşinqtonun diqqəti Pekindən öncə İrana yönələcək. Bu isə iqtisadiyyatını və ordusunu gücləndirən Çin üçün bir qədər də vaxt udmaq mənasına gəlir. Rəisinin xarici siyasətində ən maraq doğuran sual bəlkə də onun Azərbaycan-Türkiyə və bütövlükdə Qafqaz siyasətinin necə olacağıdır. Mahiyyət etibarilə Ankara və Bakı İrana qarşı öz mövqeyini açıqca bəyan edib. Lakin görünən odur ki, rəsmi Tehran Türkiyə və Azərbaycan arasında imzalanan tarixi Şuşa bəyanatından heç də razı deyil. Bunun bariz sübutu isə Azərbaycanla sərhəddə - dağın ətəyində İran inqilabının rəhbəri, islam inqilabının lideri Ayətullah Xomeyninin böyük portretinin yerləşdirilməsidir. Bu, faktiki olaraq rəsmi Tehranın şimalda baş verən prosesdən narazı olduğunu göstərir. Azərbaycanla münasibətlərə də həmişəki kimi həmin üst qurumlar yön verəcək".

**İsmayıl Qocayev**

## Erməni cəmiyyəti müharibə istəmir

"Elə buna görə də hərbi cinayətkarları hakimiyyətə gətirmədilər"



**Ermənistanda parlament seçkiləri baş tutub. Bu ölkənin Mərkəzi Seçki Komissiyasından verilən məlumata görə, Baş nazir vəzifələrini icra edən Nikol Paşinyanın "Vətəndaş sazişi" partiyası səslərin 53.9 faizini toplamaqla qalib gəlib.**

Ermənistanın eks-prezidenti Robert Koçaryanın "Ermənistan" bloku isə 21 faiz səs toplayıb. Ermənistandakı parlament seçkilərinin nəticəsi göstərdi ki, Azərbaycanın həyata keçirdiyi təcrid siyasəti nəticəsində düşmən ölkə regionun siyasi və iqtisadi həyatından kənarda qalıb.

Ölkənin iqtisadiyyatı çöküb, əhalinin sosial durumu ağırlaşıb, İrəvan xarici yardımdan asılı vəziyyətə düşüb. Əks halda xalq kapitulyasiya sənədini imzalayan Paşinyanı yox, şirin vədlər verən Koçaryan-Sarkisyan cütlüyünü hakimiyyətə gətirərdi. Millət vəkili, Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə rəsmi İrəvanın bundan sonrakı xarici siyasəti barədə "Şərq"ə danışıb: "Nəticələr açıq göstərdi ki, erməni xalqı müharibə istəmir. Elə buna görə də hərbi cinayətkarları hakimiyyətə gətirmədilər. Ermənistan normal dövlətə çevrilmək üçün ərazi iddialarından əl çəkməli, kommunikasiya xətlərinin açılması məsələsinə müsbət yanaşmalıdır. Azərbaycan və Türkiyə prezidentləri də dəfələrlə deyiblər ki, Ermənistanla əməkdaşlığa hazırdırlar. Bu əməkdaşlıq, yeni reallıqlarla barışmaq bütün regionun maraqlarına cavab verir. Ona görə də hakimiyyət revanşistlərin fəallaşmasının qarşısını almalı, qeyri-siyasi yollarla mübarizəyə şərait yaratmamalıdır. Belədə gələcəkdə üçtərəfli razılaşmanın bütün müddəalarının yerinə yetirilməsi və əməkdaşlıq üçün əlverişli şərait formalaşacaq".

**Kənan**

# Seçkinin nəticəsi gün kimi aydın oldu

## *"Azərbaycan və Türkiyə ilə normal münasibətlərə keçid Ermənistanda sosial sifarişə çevrilib"*



Ermənistandakı növbədənkənar parlament seçkilərinin nəticəsi məlum olub. Nikol Paşinyanın rəhbərlik etdiyi "Vətəndaş müqaviləsi" partiyası qalib gəlib.

Ölkənin Mərkəzi Seçki Komissiyasından verilən məlumata görə, Baş nazir vəzifələrini icra edən Nikol Paşinyanın "Vətəndaş sazişi" partiyası səslərin 53.9 faizini toplamaqla qalib gəlib. Ermənistanın eks-prezidenti Robert Koçaryanın "Ermənistan" bloku isə 21 faiz səs toplayıb.

"Çiçəklənən Ermənistan" 3.9, digər siyasi qüvvələr isə səslərin 15.7 faizini toplayıb. Əslində bu, təkcə Azərbaycan yox, həm də region üçün arzuolunan senari idi. Çünki 10 noyabr və 11 yanvar müqavilələrinə məhz Paşinyan imza atmışdı. Revanşistlər hakimiyyətə gəlsə, həmin sənədlərdə əksini tapan müddəaların icrası ləngiyə bilərdi. İndiki halda isə bu ehtimal çox azdır...

**Politoloq Tofiq Abbasov rəsmi İrəvanın bundan sonrakı xarici siyasəti barədə ehtimallarını "Şərq"lə bölüşüb:** "Yeni qələbə əsasında hakimiyyətə gələn köhnə hökumət özündə cəsarət taparaq əvvəlki siyasətindən əl çəkməlidir. Şübhəsiz ki, Ermənistanın məğlubiyyəti ancaq Paşinyanla bağlı deyil. Əvvəlki hökumət başçıları, o cümlədən Ter-Petrosyan özü də hazırkı nəticənin səbəbkarlarından biridir. Onların hər biri məsuliyyət daşıyır.

Petrosyanın "Qarabağ məsələsində Ermənistanın müttəfiqi yoxdur" bəyanatı hazırkı hökumət üçün "yol xəritəsi" olmalıdır. İrəvan səhvlərindən nəticə çıxarmalı və normal qonşuluq siyasətinə keçməlidir".

T.Abbasovun fikrincə, bu, real məsələdir: "Daha loyal siyasət yeritmək üçün ölkə daxilində əsaslar var. Paşinyana səs verənlər Koçaryan və Sarkisyana, yəni köhnə siyasətə "yox" deyənlərdirlər. Yəni Azərbaycan və Türkiyə ilə normal münasibətlərə keçid Ermənistanda sosial sifarişə çevrilib. Biz düşmən olsaq da, Türkiyədə 100 mindən artıq erməni yaşayır. İmkanları olsa, Azərbaycana da gələrlər. Hökumət bütün bunları nəzərə almalıdır. Başqa alternativ yoxdur".

**Kənan Novruzov**

# İctimai və dövlət maraqlarının müdafiəsi



# Kimsəyə güzəşt olmayacaq

## *Saxta əlillik dərəcələri alanların işi araşdırılır*

"Saxta əlillik", "əlilliyin ləğvi", "əlilliyin təyini"¸ Son zamanlar həm rəsmi, həm də qeyri-rəsmi çevrələrdə, sosial şəbəkələrdə haqqında ən çox danışılan, müzakirə olunan mövzulardır. Müzakirələrə səbəbsə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi əlilliyin qiymətləndirilməsi sahəsində şəffaflığın və obyektivliyin təmin olunması istiqamətində fəaliyyətini genişləndirib, bu yöndə ciddi çalışmalara başlamasıdır.

Nəticə etibarilə bu sahədə qanunsuzluğa yol verənlər, əsassız əlillik təyinatlarına şərait yaradanlar, əlilliyin təyin edilməsi kriteriyalarına uyğun gəlinmədiyi halda bir sıra şəxslərə əlilliyin təyin edildiyi üzə çıxıb. Hazırda bu cür neqativ hallarla bağlı hüquqi müstəvidə tədbirlər görülür. Amma həqiqi əlilliyi olanlar da bundan əziyyət çəkir. Ümumi araşdırmalar əlillik müavinəti alanların müavinətlərinin müvəqqəti də olsa dayandırılmasına gətirib çıxarıb ki, bu da həmin insanların maddi sıxıntı çəkməsinə səbəb olub. Azərbaycan dövlət siyasətinin vətəndaşların sosial rifah halının daim yüksəlməsi, yaxşılaşması üzərində yürüdüldüyünün təsdiqə ehtiyacı yoxdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin hər hansı digər layihələr, işlər təxirə salınsa da, sosial yönümlü layihələri heç vaxt təxirə salmadığı, ləğv etmədiyi, əksinə, bütün çıxışlarında bu məsələnin üzərində dayanaraq vətəndaşların sosial rifah halının yaxşılaşmasına xidmət edəcək layihələrin icrasına önəm verdiyini görürük. Bu, Azərbaycan dövlət siyasətinin prioritetidir və o, heç vaxt dəyişməyəcək. Eyni zamanda dövlət vətəndaşlar arasına fərq qoyulmur. İstehsalat əlili, fiziki qüsurluğu, yaxud əlilliyi olan şəxslər, yaxud müharibə əlili, dövlətimiz bütün vətəndaşlarını maddi cəhətdən təmin edir. Lakin etiraf etməliyik ki, müharibə əlilləri xüsusi kateqoriyadır. Məhz müharibənin od-alovundan çıxdıqlarına görə, müqəddəs Vətən savaşında iştirak edərək sağlamlıqlarını itirdiklərinə görə. Bu insanlar təkcə hansısa fiziki

## Artıq 266 şəxs üzrə sənədlər Baş Prokurorluğa göndərilib

əlilliyi görə müalicə və reabilitasiyaya ehtiyac duymur, eyni zamanda müharibə stressi onların psixi reabilitasiyasını da vacib edir. Belə vaxtda müharibə əlillərinin əlillik təqaüdlərinin dayandırılması təbii ki, onlara mənfi təsir edən amil olacaq. Bu məsələdə ƏƏSTM-nin öz arqumentləri, yanaşma tərzi olduğu kimi, əlillərin də öz arqumentləri var.

### Saxta əlillik dərəcələri təyin edənlər cəzalanacaq

Qeyd edək ki, saxta əlilliklə bağlı 266 şəxs üzrə sənədlər Baş Prokurorluğa göndərilib. 2018-2021-ci illərdə bu istiqamətdə aparılan işlər çərçivəsində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Aparatının və tibbi-sosial ekspert komissiyalarının (TSEK) 19 əməkdaşı əmək funksiyalarının icrasında kobud nöqsanlara yol verdiklərinə görə vəzifələrindən azad edilib. Həmçinin onlar barədə hüquqi qiymət verilməsi üçün sənədlər aidiyyəti cinayət təqibi orqanlarına təqdim olunub. Bundan əlavə əlilliyin və sağlamlıq imkanları məhdudluğun qiymətləndirilməsi zamanı obyektiv qərar qəbul etməmiş 11 nəfər TSEK əməkdaşı barəsində isə intizam tənbeh tədbirləri görülüb. Beləliklə, əlilliyin qiymətləndirilməsində qanunsuz hərəkətlərə yol vermiş Agentliyin 30 məsul əməkdaşı barədə ciddi tədbirlər görülüb. Qanunsuz əməllərlə bağlı Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işləri başlanıb. Hazırda cinayət işləri üzrə əhəmiyyət kəsb edən digər halların, cinayətlərin törədilməsində hər hansı formada iştirak etmiş digər şəxslərin müəyyənləşdirilməsi istiqamətində əməliyyat-istintaq tədbirlərinin həyata keçirilməsi davam etdirilir. Bununla yanaşı vətəndaşların etibarından suiistifadə etməklə onlara əlillik təyin ediləcəyi vədi ilə onların pul vəsaitlərini mənimsəyib, habelə Nazirliyin nüfuzuna xələl gətirən və digər vətəndaşlar barəsində də oxşar əməlləri istisna olunmayan 2 vasitəçinin (dəllalın) hərəkətlərinə hüquqi qiymət verilməsi üçün müvafiq materiallar Baş Prokurorluğa göndərilib.

### Əlilliyin müəyyənləşməsində obyektivlik əsas şərt olmalıdır

Xatırladaq ki, parlamentdə ”Əlilliyi olan şəxslərin hüquqları haqqında” qanuna təklif edilən dəyişikliklərlə bağlı müzakirələr aparıldı. Millət vəkilləri qeyd ediblər ki, əlillik ətrafında yaranan sosial narazılıqları aradan qaldırmaq üçün bir sıra əlavə dəyişikliklər edilməlidir. Əlilliyin müdafiəsinə dair Qanun 3 ildir qəbul olunub. Lakin qanunda işləməyən maddələr var. Onları işlək hala salmaq üçün addımlar atılmalıdır. Əlillərin işlə təmin edilməsi, xüsusilə də hər cəhətdən borclu olduğumuz Qarabağ qazilərinin və şəhid ailələrinin işlə təmin edilməsi həyata keçirilməlidir. Saxta əlilliklə bağlı rəqəmlər onu göstərir ki, nazirliyin özündə də bu məsələ ilə bağlı tam yəqinlik yoxdur. Saxta əlillik dərəcəsi alanla bərabər, saxta əlillik dərəcəsi verənlə bağlı qanundakı maddə də işləmir. Ən problemli məsələ isə saxta əlillik dərəcələrinin ləğvi zamanı həqiqi əlilliyi olan şəxslərin, əlillik təqaüdü almaq hüququ olan insanların hüquqlarının pozulması və onların təqaüdlərinin kəsilməsidir. İndiki mərhələdə təqaüdlərin müəyyənləşməsində obyektivlik tətbiq etmək mümkündür və bu, icra edilməlidir. Amma bu iş son dərəcə həssaslıqla aparılmalıdır. Qanundan sonrakı nəticələr, faiz məsələsi - sağlamlığın itirilməsi faizinə görə əlillik dərəcəsi və buna uyğun təqaüdün təyini, işin hansı qurumlar tərəfindən icra olunacağı dəqiq bilinməlidir. Müddətsiz əlilliyin təyini ilə bağlı da kriteriyalar dəqiqləşməlidir. Müharibədə əlini-qolunu, ayağını, bədənini hansısa əzasını itirmiş qazilərə müddətsiz əlillik müəyyən edilməlidir. İtirilmiş əza, bərpa olunmayandırsa, niyə də müddətsiz əlillik olmasın? Hazırda təkcə ürək-qan dövranı sisteminin xəstəlikləri zamanı əlilliyin hansı hallarda müddətsiz təyin ediləcəyi müəyyənləşib. Bu, ”Əlilliyin müəyyən olunması Meyarları”na əlavə ”İnsan orqanizmi funksiyalarının itirilməsi faizlərinin cədvəli”ndə əksini tapıb. Yeni qaydalara görə, qan dövranı sisteminin xəstəlikləri zamanı insan orqanizminin funksiyalarının itirilmə faizindən asılı olaraq, məsələn, arterial hipertenziyanın I, II və III dərəcələri, xəstəliyin II və III mərhələləri, əlaqəli klinik vəziyyətlərdən irəli gələn orqanizmin funksiyası(lar)nın əhəmiyyətli təzahür edən pozulması, tez-tez (ildə 6 dəfədən çox) olan ağır krizlər olduğu zaman (81 -100 faiz) əlillik müddətsiz təyin olunacaq. Ürəyin işemik xəstəliyi zamanı, ürək qan dövranının əhəmiyyətli pozulması zamanı da əlillik dərəcəsi təyin olunacaq.

### “Əvvəlki qanun geri oxunmalıdır”

**”Qarabağ qaziləri” İctimai Birliyi isə əlillik dərəcələrinin təyin edilməsi ilə bağlı Milli Məclisə iki təklif ünvanlayıb. Birliyin mətbuat xidmətinin rəhbəri, Qarabağ qazisi, jurnalist Rey Kərimoğlu qeyd edir ki, əlillik dərəcələrinin təyin edilməsi ilə bağlı qazilərin ciddi narazılıqları var.** Səbəb Nazirlər Kabineti tərəfindən 2015-ci ildə qəbul edilmiş 413 saylı qərardır. Deputat Musa Quliyev də mətbuata açıqlamasında bunu etiraf edib. Bütün problemlər buradan başlayıb. Yəni əvvəlki qərarla 2015-ci ilədək əlillik dərəcəsi alan qazilər 2021-ci ildə təkrar müayinəyə gələrkən 2015-ci ildə qəbul edilmiş 413 saylı qərarla əlilliyə səbəb olan xeyli xəstəliklər siyahıdan çıxarılıb deyə, komissiya yenidən qaziyə əlillik dərəcəsi verə bilmir. Hazırda MM-də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən təqdim edilən yeni düzəlişlər layihəsi müzakirə edilir. Əgər bu layihə yaxşı olsa, qəbul edilsə belə 2023-cü ildə qüvvəyə minəcək. Deməli, ona qədər qazilər təqaüd ala bilməyəcək. Ona görə də təklif edirik ki, optimal çıxış yolu kimi NK-nin 413 saylı qərarı ləğv edilib, yenisi (indi müzakirə edilir) qəbul edilənə qədər müayinə vaxtı çatan qazilərin əlillik müddəti 1 il uzadılsın, təqaüdləri də ödənsin ki, məsələlər tam aydınlaşana kimi qazilər maddi sıxıntı çəkməsin. Bu təklif hələlik yeganə çıxış yoludur. Nazirlər Kabinetinin 2015-ci ildə qəbul etdiyi 413 saylı qərarın icrası dərhal dayandırılmalıdır. Buna yönəlik, qanunvericilik bazası yenidən işlənməlidir.

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Gündəmi "Tik-tok" müəyyənləşdirir!

Sosial şəbəkələr çox qəribə platformadır. Hər səhər telefonumuzu əlimizə alıb sosial şəbəkə hesablarımıza göz gəzdirəndə bir gündəmlə tanış oluruq. Sanki gündəmi artıq "Facebook", "İnstagram", "Tik-tok" müəyyənləşdirir.

"Sanki" niyə? Elə belədir. Əks halda cəmiyyətin əksər hissəsi nə üçün Şuşa Bəyannaməsinin müddəalarını arxa plana keçirib Fulya Öztürklə bağlı film çəkilməsini ajiotaja çevirsin, Van Damdan danışsın, ya da hansısa ucqar bir kənddə üçbuynuzlu keçinin doğulmasını ciddi-cəhdlə müzakirə etsin?! Görünür, hansısa "gizli əl və ya əllər" informasiyanı idarə edir və məqsədli şəkildə gündəmi dəyişir.



*Qulu Məhərrəmli: "Ciddi problemləri məişət səviyyəsinə endirmək, yersiz dartışmalar yaratmaq istəyənlər çoxdur"*

**BDU-nun Jurnalistika fakültəsinin professoru Qulu Məhərrəmli "Şərq"ə açıqlamasında sosial şəbəkələrdəki tendensiyanı belə izah etdi:** "Bu, həmin platformalardakı azadlıq meyarları, demokratiya ilə əlaqəlidir. Gündəmi dəyişmək istəyənlərlə yanaşı, ictimai rəyə təsir etməyə çalışanlar da var. Ciddi problemləri məişət səviyyəsinə endirmək, yersiz dartışmalar yaratmaq istəyənlər çoxdur. Çünki həmin mövzularda "müzakirə aparmaqdan ötrü" xüsusi intellekt tələb olunmur. Və biz hər kəsdən eyni dərəcədə məntiq, intellekt, dövlətçilik şüuru ummaqla səhv edirik. Odur ki, sosial şəbəkələrdəki meyli normal qarşılamalıyıq".

**Q.Məhərrəmli, həmçinin belə hallarla necə mübarizə apara biləcəyimizi izah etdi:** "Media işçiləri bu məsələdə aktiv olsalar da, tək onlar deyillər. Mənfi yüklü, yoxlanılmamış informasiya yayanlar az deyil. Lakin onların bu cəhdləri külək effektlidir - əsib keçir. Nə gündəmi dəyişə bilir, nə də prosesləri. Biz cəmiyyətdə intellektual səviyyənin yüksək olmasına çalışmalıyıq. Belədə hadisələrə doğru yanaşacaq və sosial şəbəkələrdən umacağımızı minimum endirə biləcəyik".

**Kənan**

## Sürprizlər ola bilər

### "Dünyada "Delta" ştammı yayılır"



**Xeyli mübarizədən sonra Azərbaycanda COVİD-19-la bağlı vəziyyət, nəhayət, stabilləşib. Əlbəttə, bu, sevindiricidir.**

Axır ki, rahat nəfəs ala bilirik. "Kefimizə soğan doğrayan" isə dünyada sürətlə yayılan və artıq Rusiyanı ağuşuna alan Hindistan ştammıdır. Biz də əvvəlki günlərə yenidən qayıdacağıq?

**Azərbaycan Tibb Universitetinin professoru Adil Qeybulla bu barədə "Şərq"ə danışıb:** "Düzdür, hazırda epidemioloji vəziyyət stabildir. Bu, xeyli insanın xəstələnməsi və vaksin olunması ilə əlaqədardır. Amma arxayınlaşmamalıyıq. Sürprizlər ola bilər. Dünyada "Delta" ştammı yayılır. Hətta "Delta+"la bağlı da müxtəlif iddialar var. Vəziyyət pisləşsə, yenidən qapanmaya gedə bilərik. Odur ki, diqqətli, ehtiyatlı olmalı, peyvəndləmə prosesinə loyal yanaşmalıyıq".

**Kənan**



Kənan Novruzov

# Onsuz da film çəkiləcək, Fulya yenə seviləcək...

Azərbaycanda olarkən ondan müsahibə almağı çox istəmişdim. Alınmamışdı. Amma operatoru Halil Kahramanla söhbətləşmişdim. Dostlaşmışdıq. Bayaq mesaj yazdım: "Fulya xanıma çatdırın ki, biz dost yox, qardaşıq və başımızın üstündə yeriniz var".

44 günlük müharibədə yanımızda olan, informasiya təminatını uğurla həyata keçirən və bu müddətdə xalqın sevgisini qazanan türkiyəli həmkarımız Fulya Öztürkü deyirəm. O Fulya ki, qadın olduğu halda ən qaynar nöqtələrə getməkdən, bəlkə də canlı hədəfə çevrilməkdən çəkinmədi, qorxmadı. Çünki təkcə peşəkar deyil, həm də vətənpərvərdir. Onun üçün Türkiyə nədirsə, Azərbaycan da odur. Əks halda əsla belə effekt olmazdı. Əminliklə və tam məsuliyyətimlə deyirəm, jurnalistə nə qədər maaş, qonorar, mükafat verilir-verilsin, əgər o, işlədiyi mövzunu duymur, hiss etmirsə, faydasızdır. Heç bir məbləğ insanın canından şirin deyil. İnsan yalnız daha müqəddəs olan uğrunda mübarizə aparanda həyatını təhlükəyə atır. Bu isə torpaqdır, vətəndir.

Azərbaycanın Fulya Öztürkün baş qəhrəmanlarından biri olduğu "Fulya" sənədli filmini çəkməsi ölkəmizdə birmənalı qarşılanmadı.

İki-üç gündür müzakirələr gedir. Bəziləri bunu lazımsız hesab edirlər. Öncə onu xatırladaq ki, ekran işi jurnalist barəsində yox, Azərbaycanın tarixi qələbəsi və informasiya cəbhəsindəki mübarizəmiz haqqındadır. İkincisi, başa düşürəm ki, bu, həmin media nümayəndəsinə təhkim edilən vəzifə idi və işini uğurla gördüyünə görə mükafatlanıb. O da doğrudur ki, bizim "Fulya" filmini çəkmək kimi öhdəliyimiz yoxdur. Amma təşəbbüs qaldırılıbsa, işə başlanılıbsa, "pəl vurmağın" nə adı var?! Niyə alqışlamayaq, təqdir etməyək? Niyə həmkarımızın sevincini gözündə qoyaq? Nə üçün hər cür imkandan istifadə edərək göstərməyə çalışaq ki, Fulya qeyri-adi bir iş görməyib və bu cür diqqətə layiq deyil? Əgər belədirsə, Fulya olmaq bu qədər asandırsa, filmi yersiz hesab edənlər, siz niyə könüllü şəkildə Türkiyəyə getmirsiz, oradakı "qaynar nöqtələrdə" olub, qardaş ölkənin PKK ilə mübarizəsini işıqlandırmırsınız?! Axı sizin məntiqinizlə hər bir peşəkar jurnalist üçün bu adi haldır. Deməli, ya peşəkar olmadığınızı etiraf edirsiniz, ya da...

Keçək məsələnin siyasi tərəfinə. Məlum olduğu kimi, Şuşa Bəyannaməsindən sonra iki qardaş ölkə arasındakı münasibətlər yeni mərhələyə qədəm qoydu. Bunu bütün dünya gördü. İndi neqativ yüklü fikirlərlə beynəlxalq ictimaiyyətdə, o cümlədən "bir himə bənd olan" Fransada "Qardaş qardaşa paxıllıq edir" kimi rəy yaratmağa nə ehtiyac var?! Onsuz da film çəkiləcək, Fulya yenə seviləcək... Həmkarlarımızdan birinin dediyi kimi, Fülyanı ağlatdınız, dincəldiz?! Qələmdaşımızın sözünə qüvvət, əlinizə nə keçdi?! Məncə, heç nə.

Kimisə ilahiləşdirmək fikrim yoxdur. Amma gəlin etiraf edək ki, Fulya "Dördüncü hakimiyyət", "Cəmiyyətin güzgüsü" statuslarına tam uyğun jurnalistdir. Və Azərbaycanın haqq səsinin eşidilməsi üçün ciddi işlər gördü. Bunu qəbul etsəniz, hər şey düzələcək...

# Fermerlər əkdiklərini sata bilmirlər

*Çünki hələ də xaricdən gətirilən kartoflar bazarda üstünlük təşkil edir*

Bu gün kənd təsərrüfatı sahəsində pərakəndəlik hökm sürür. Dediqodu üzərinə qurulan, planlaşdırılmadan əkilən məhsul növləri sonda fermerlərin ziyana düşməsinə səbəb olur. Bu baxımdan düzgün yanaşmadır, yalnız bir səhv var - fermer ölkədə özü kimi düşünən fermerlərin sayının çox olduğunu unudur.



"Fermerlərin birbaşa tarladan süfrəyə modelinə keçid üçün yeni mexanizmlərinin yaradılmasına ehtiyac var"

Nəticədə ötən il sarımsaq baha olubsa, bu il hamı ucdantutma sarımsaq əkir, bazarda məhsul bollaşır, təklif tələbi üstələyir və qiymətlər ötənilki qiymətlərdən dəfələrlə ucuz olur. Və fermer zərərə uğrayır. Digər amil isə quraqlığın olmasıdır ki, bu da fermerlərə ciddi ziyan vurur. Tovuz rayonunun aran hissəsində kartofçuluqla məşğul olan fermerlər bu il bol məhsul götürməyi planlayırlar. Düzdür, onlar bir neçə ildir suvarmada çətinliklərlə qarşılaşdıqlarından, bunun məhsuldarlığa mənfi təsiri ilə üzləşiblər. Bu il isə hava yağmurlu keçdiyindən suyun bol olduğunu deyirlər. Hazırda son suvarmaları həyata keçirilən bu bitkinin bir neçə gündən sonra yığımına kütləvi şəkildə start veriləcək. Lakin son suvarma bitməmiş fermerlərin məhsulu sata bilməmək narahatlığı artıb. Bəs bunun səbəbləri nə ilə əlaqəlidir?

**Sualımızı cavablandıran iqtisadçı-ekspert Natiq Cəfərli "Şərq"ə açıqlamasında bildirib ki, fermerlərimizin ən böyük problemi tarladan süfrəyə modelinin Azərbaycanda hələ də həyata keçirilməməsidir.** Yeni Azərbaycanda fermerlərlə alıcı arasında bir neçə qurumların, bir neçə ara şirkətlərin və şəxslərin olduğu bildirilir: "Bu da qiymətlərin yüksəlməsinə, nəticə etibarı ilə də fermerlərə sərf eləməyən topdansatış qiymətlərinin yaranmasına səbəb olur. Azərbaycan hökuməti və Kənd Təsərrüfatı Nazirliyi uzun illərdir ki, bununla bağlı danışıqlar aparsa da, hələ də tarladan süfrəyə modelini tətbiq edə bilmir. Bunun nəticəsində də fermerlər əziyyət çəkirlər".

**İqtisadçı qeyd edib ki, pandemiya ilə əlaqədar olaraq xarici bazarlara kartofun çıxarılması kifayət qədər çətinləşib:** "Bizim əsas bazarlarımızdan biri Rusiya bazarı idi. Rusiya isə artıq 5 ilə yaxındır ki, Azərbaycanın sərhədlərinə yaxın bölgələrdə Krasnodar vilayətində çox böyük kartof sahələri əkməyə başlayıblar. Təbii ki, bu da Rusiyanın daxili bazarında kartof qiymətlərini ucuzlaşdırıb və ixracatı sərf eləməyən bir hala gətirib çıxarıb. Ona görə də bizdə daxili bazara üstünlük verilməlidir. Xaricdən gətirilən kartoflar hələ də bazarda üstünlük təşkil edir. Ona görə də bizdə fermerlərin birbaşa tarladan süfrəyə modelinə keçid üçün yeni mexanizmlərinin yaradılmasına ehtiyac var. Bu baş verərsə, nəticə etibarilə Azərbaycanda həm qiymətlərin sabitləşməsinə, həm də fermerlərin öz məhsullarını daha uyğun qiymətlərə sataraq qazanc əldə etməsinə imkan yara bilər".

**Aynurə Pənahqızı**

# Dərs olacaqmı?

## *Rüşvətxor direktorlar işdən çıxarılır*



2020-2021-ci tədris ili ərzində Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki təhsil müəssisələrinə 8 nəfər direktor vəzifəsinə işə qəbul edilib, 21 direktorun iş yeri dəyişdirilib. İdarə tərəfindən 25 məktəb direktoru Fəxri Fərmanla təltif edilib.

Çalışmanın yaş həddinə çatmış 36 direktorla müqavilənin müddəti 2020-2021-ci tədris ili çərçivəsində uzadılıb. 19 direktorla bağlanmış əmək müqaviləsi ləğv edilib, 1 ümumi təhsil məktəbinin (304) fəaliyyəti dayandırılıb, 1 ümumi təhsil məktəbinin (152) fəaliyyəti bərpa edilib.

19 nəfər məktəb direktorunun işdən azad edilib və bu elə də az rəqəm deyil. Ümumiyyətlə, son zamanlar direktorların iş prinsipi, vəzifələrindən sui-istifadə hallarının olubolmaması dəqiq araşdırılır. Hansısa qanunsuzluqlar aşkar edildikdə isə işdən kənarlaşdırılırlar. Bəs bu durum digər məktəb direktorlarına dərs olurmu?

**Sualımızı cavablandıran təhsil üzrə ekspert Elçin Əfəndi "Şərq"ə bildirib ki, rəhbər vəzifədə çalışan hər bir şəxsin etik qaydalara əməl etməsi vacibdir:** "Təəssüflər olsun ki, bəzən məktəb direktorlarının bu qaydalara riayət etmədiyinin şahidi oluruq. Lakin son dövrlərdə Bakı və digər ərazilərdə bu məsələ xüsusi diqqətə alınır, lazım olduqda işdən kənarlaşdırmalar olur. Eyni zamanda direktorların qəbul imtahanlarının həyata keçirilməsi də çıxarılanların yerinə təyinatla əlaqəlidir. Amma ümumilikdə işdən çıxarılan direktorlar azlıq təşkil edir. Çünki bəzi direktorlar bu vaxta qədər tanışlıq, qohumluq əsasında işləyirdilər, indi də belədir. Kiminsə qohumu nazir müavini vəzifəsində çalışır və onlar xətaya yol versələr də, vəzifədən çıxarılmırlar. Çox istərdim ki, qeyri-qanuni əməllərə yol verdikdə onlar da işdən azad olunsunlar".

**Ekspert düşünür ki, direktorların qanunsuz əməlləri digərlərinə dərs olmayacaq:** "Çünki işini quran həmin direktor elə edib ki, müəyyən zaman çərçivəsində ödənişlərini alır və buna son qoya bilmir. Təhsilin inkişafı və gələcəkdə ixtisaslı kadrların rəhbər vəzifədə çalışması üçün rüşvətxor direktorların işdən çıxarılması yaxşı haldır".

**Yeganə Bayramova**

## Peyvənddən sonra kola, fanta, spirtli və energetik içkilər olmaz

"İlk növbədə zülallı qidalar - yumurta, balıq, toyuq əti və qırmızı ət qəbul etmək lazımdır"



**Dünyanı öz ağuşuna alan yeni növ koronavirus (COVID-19) infeksiyasına qarşı mübarizə davam edir.**

Artıq bir sıra ölkələrdə, o cümlədən Azərbaycanda yeni növ koronavirus infeksiyasına qarşı vaksinasiya prosesinə başlanılıb. Yeri gəlmişkən, vaksinasiyadan əvvəl və sonra, həmçinin sonrakı günlərdə qida rasionu - qidalanma rejimi mütəxəssislər tərəfindən müzakirə olunan məsələlərdən biridir. İsti yay gününü nəzərə alsaq, insanlar istilikdən sonra dərhal qazlı içkilərə üstünlük verirlər. Bəs vaksinasiyadan sonra qazlı içkilər içilməlidirmi? **Məsələ ilə bağlı tibb elmləri doktoru, professor Musa Qəniyev "Şərq"ə açıqlamasında bildirib ki, insan orqanizmi hər zaman immun sistemini möhkəmləndirən zülal və vitaminlərlə zəngin olmalıdır:** "Vaksinasiyadan sonra energetik içkilərin içilməsini qəti məsləhət görmürəm. Kola, fanta və spirtli içkilər isə ilk və ikinci dozadan sonrakı ilk 3 gün sadəcə olaraq, tövsiyə olunmur. İlk növbədə, çoxlu meyvə-tərəvəz və zülallı qidalar - yumurta, balıq, toyuq əti və qırmızı ət qəbul etmək lazımdır".

**Aynurə Pənahqızı**



## İki günə bir kitab sata bilməyib

*Cəlil Cavanşir səyyar kitab satışından vaz keçdi*

**Bu günlərdə yazar-şair Cəlil Cavanşir səyyar kitab satışı ilə məşğul olacağını söyləyib. Yazar bu barədə feysbuk hesabında bildirib: "Səyyar kitab satışına başlamaq istəyirəm. İlkin olaraq müəllifi olduğum "Eşq və intihar" və "Azğın" kitablarımdan, şəxsi kutabxanamdakı avtoqrafsız kitablardan başlamağı düşünürəm.**

Məkan olaraq "Qış parkı", "AzDrama"nın həndəvərini düşünürəm. Axşamlar 6-dan sonra kitab sataraq küçə ticarətinə qurşanmaq niyyətindəyəm. Sabah və birisigün hava çox isti olmasa, niyyətliyəm. Başlayar-başlamaz elan verəcəm, məkanı bildirəcəm".

**Yazar səyyar kitab satışı ilə bağlı "Şərq"ə açıqlamasında bildirib ki, belə bir qərarı özü verib:** "Düşündüm ki, həm kitablara bir az diqqət olsun, həm də maddi problemlərimi kiməsə ehtiyac olmadan ödəyim. Ona görə də belə təşəbbüslə çıxış etdim. İki gün kitab satışı ilə məşğul oldum, sonra isə qərara gəldim ki, bu işi görmək lazım deyil. Ölkəmizdə kitaba heç bir maraq yoxdur. İki gün ərzində bir kitab belə satmayanda insan ruhdan düşür. Düşündüm ki, kitabları sata bilmirəmsə, bu işlə məşğul olmağa dəyməz".

**Yeganə Bayramova**

# Psixoloji travmalar hər kəsə eyni təsir göstərmir



*"Bəzi valideynlər övladlarını öldürə biləcək qədər cinayətkara çevrilir"*

"Biz insanla bağlı hansısa mövzunu elm müstəvisində müzakirə edəcəyiksə, öncə onun antropoloji və sosioloji tarixinə nəzər salmalıyıq. İnsan bioloji və sosial varlıqdır. O, təbiətdəki digər canlılardan fərqli olaraq formal şüur aktını, dilçiliyi, müşahidələri meydana gətirib, beləliklə yaradıcılıq və quruculuqla məşğul olub.

İnsanın sosial fəaliyyətində, ortaya çıxan yaradıcılıq göstəriciləri vardır. Onların tərkibində təhsillə bərabər yaradılan tərbiyə metodları insanın vəhşilik xüsusiyyətlərini ortadan qaldırmayıb. Həmin instiktivlər tərbiyə olunub. İnsan sosial təkamül prosesi keçərək müəyyən mərhələyə çatıb. Nə qədər sosial-siyasi nizam olsa da, düşüncə tərzi formalaşsa da, ondakı vəhşilik halları zaman-zaman ortaya çıxır".

**Bu sözləri "Şərq"ə açıqlamasında sosioloq Sahib Altay söyləyib. Ekspert valideynlərin öz övladlarını qətlə yetirməsi məsələsi haqda danışıb. O deyib ki, tarixdə də bu tip hallar mövcud olub:** "Digər canlılarda da müşahidə etmək olar. Məsələn, erkək pişik bəzən qısqanclıqdan öz balalarını yeyir. Əsasən dinlər dünyanın digər bölgələrinə bizim yerləşdiyimiz coğrafiyadan yayılıb. Din yaradıcılığı, nəzəriyyəsi əsasən Yaxın və Orta Şərqlə bağlı olur. İstər islamda, istərsə də ondan öncəki dinlərdə İbrahim peyğəmbərin öz oğlunu qurban kəsməsi məsələsi yer alıb. Qədim zamanlarda ivrit tayfalarında atalar iki oğuldan birini qurban kəsirdilər. Eyni hadisə 17-ci əsrin ortalarına qədər indiki Yeni Zenlandiya adalarında da baş verirdi. Qəbilə başçısını tanrı hesab edirdilər, onun uğrunda da öz oğullarını öldürürdülər. Bu, qətldir, cinayətdir. Amma psixologiya belə formalaşmışdı. Xüsusi bir adət halını almışdı. İbrahim peyğəmbərin də yaşadığı coğrafiyada bu adətlər var idi. Ənənəni aradan qaldırmaq üçün o, öz oğlunu qurban deyib. Sonra guya Tanrı buyurub və onun əvəzinə bir qoyunu kəsib. Yəni övladı hansısa bir heyvanla əvəz edib. Hətta bunun əksi də mövcud idi. Oğullar da ataları hakimiyyəti ələ keçirmək üçün öldürürdülər. Yəni insan psixologiyasında belə bir şey formalaşdırılmışdı. İnsan dərk etmirdi ki, mənim oğlumdur və onu kəsə bilmərəm. Bu vəhşilik xüsusiyyəti insanın bioloji strukturunda mövcuddur".

**Sosioloq indiki dövrdə ata-anaların övladlarını öldürməsinin səbəblərindən də söz açıb:** "Bu da insanda bir vəhşiliyin mövcud olmasından xəbər verir. İnsan müəyyən mərhələlərdən keçdi və insanlıq modeli yarandı. Lakin bəşərin vəhşilik xüsusiyyətlərini aradan qaldıra bilməmişik. Onun üzərini örtüb bəzəmişik, tərbiyə etmişik. Düzdür, sözügedən hadisələr get-gedə çoxalır. Valideynin övladını qətlə yetirməsi sensasiya doğurur. Onu da deyim ki, insan sayı çoxaldıqca, üstünlüklər və eybəcər hadisələr də artır. Bəzən deyirlər ki, atababalarımızın zamanında belə hadisələr yox idi. Tamamilə yanlış fikirdir. Var idi. Sadəcə eşitmək imkanımız çox deyildi. İndi texnologiya inkişaf etdiyi üçün hər xəbərdən tez məlumatımız olur. Bütün valideynlər övladlarını qətl edəcək deyə bir şey yoxdur. Sadəcə, belə xəbərlər çox yayılır. Bu da qəbul etdiyimiz inan modelinə ziddir. Həm də sensasiya doğurması tamamilə normal haldır. Analıq və atalıq dünyada ən müqəddəs hiss sayılır. Bunun qarşılığında insanın övladını qətl etməsi gözlənilməzdir. Sıravi insanın öz övladını öldürmüsü psixoloji travmalardan qaynaqlanır. İnkişaf təkcə müsbət nəticələr deyil, mənfiliklər də doğurur. Bugünkü texnoloji inkişafın sərhədsiz irəliləməsi, xüsusi kapitalist məqsədə xidmət etməsi ilə insan sosiallığı çərçivələnir. Sosial şəbəkələr, internet resursları olsa da, insanlar asosiallaşmağa doğru gedirlər. Bu da müxtəlif psixoloji travmaların yaranmasına səbəb olur və hər kəsə eyni təsir göstərmir. Hansısa psixoloji travma analıq hissini və atalıq düşüncəsini üstələyir. İnsan o hissi müqəddəs kimi görə bilmir. Nəticədə öz övladını öldürə biləcək bir cinayətkara çevrilir. Bir sıra hormonlar var ki, bəzi insanlarda mövcuddur. O hormonların kütləvi daşıyıcısı olan adamlar cinayətə daha meyillidir. Lakin hüquq və cəza qorxusu da var. Amma insan bütün bunları üstələyərək cinayət törədir. Ya onda öncədən meyil olur, ya da sonradan formalaşır. Onların içərisində bir əskiklik, şəxsiyyət yarımçıqlığı var. Genetik ola, ya da yaşam tərzi ilə əlaqəli yarana bilər. Deyirlər, xoşbəxt uşaqlar xoşbəxt ailələrdə doğulurlar. Həmin valideynlər xoşbəxt ailələrdə böyüməyiblər, sonra yaxşı həyat tərzləri olmayıb. Beləliklə onlardakı saf, ülvi hisslər adiləşib. Nəticədə pozğun psixoloji model meydana gəlib. Övladı ilə sıradan insanı fərqləndirə bilməyib. Bir sözlə, normal insan öz övladını qətlə yetirməz".

**Samirə Ərəblinski**

## Afət yenə meydan oxudu

"Bu nədir, hərəniz bir "paduşka" qoydurursunuz, sonra da kamera önündə fırlanırsınız"



**"Bəzi şou-biznes nümayəndələri məndən qorxurlar. Məsələn, bir ay yarım öncə Tolikin verilişində qonaq idim. Təsadüfən qulaq müsafiri oldum. Bir nəfər bilib ki, verilişdəyəm, gəlməyib".**

"Şərq" xəbər verir ki, bu sözləri "Lent.az"a açıqlamasında müğənni Afət Fərmanqızı söyləyib. O, söhbətə davam edərək bunları deyib:

"Həmin ifaçı özünü apara bilməyən xanımdır. Aktrisasan, ya müğənnisənsə sənətini göstər. Gəlir fırlanır, poz verir. Sənət adamı oxusa, oynasa olar. Mən də rəqs edirəm. Burdan üzümü tuturam özünü şou-biznes nümayəndəsi adlandıran xanımlara... Bu nədir, hərəniz bir "paduşka" qoydurursunuz, sonra da kamera önündə fırlanırsınız. İzah edin bilək. Sənətdir, ya nədir? Hərə bir yastıq qoydurur. Çox bərbad görünürlər. Sonra da 360 dərəcə fırlanır, videonu da səhifəsində paylaşır. Müğənni olur. Qurunun oduna yaş da yanır. Ona görə nə müğənninin qızını alırlar, nə də oğluna qız verirlər. Bizim sənət də belə hörmətsiz olur".

# "Rəhim, ağıllı ol!"

*Roza Zərgərli: "Səmimi olsan, qadınlarla dostluq etməyi bacarardın"*



Bir müddət öncə müğənni Rəhim Rəhimli "ATV Maqazin onlarla " proqramının "33 sual" rubrikasında qonaq olarkən həmkarı Roza Zərgərlinin ünvanına sərt sözləri söyləyib. O, Rozanın "Rəhimin evində də olmuşam" açıqlamasını təkzib edib.

**"Şərq" xəbər verir ki, R.Zərgərlidən Rəhimə cavab gecikməyib. Sənətçi həmin verilişdə həmkarının iddialarına cavab verib:** "Rəhmətlik Rüfətin klipində bir yerdə olmuşuq. Necə məni həyatında 4 dəfə görmüsən?! Həmin klipə görə studiyada, sonra mahnı bəstələnəndə, sözlər bölünəndə, bir də klip çəkilişində görüşmüşük. Bu dörd etdi. İllərlə başqa görüşlərimiz də olub. Yadında deyil, evinə gələndə xaricdən yeni qayıtmışdın?! O zaman nə proqramlar, nə mahnılar, nə də obrazların var idi. Mahnı satıb özünü dolandırırdın. Hamımızın pis günü olub. Sən də səhnəyə yeni gələn müğənnilərə ehtiyac duyurdun. Evinə girdim, sağ tərəfdə otaq və fortepiaona yerləşirdi.

Bir az xatırla. Bəlkə də, səhərlər yuxulu olursan. Amma ananın əllərindən bir daha öpürəm. Çay da süzdü, şirniyyat da verdi, çox kübar xanımdır. Rəhim deyir ki, mən Roza ilə səhnə bölüşməmişəm, Aygün xanımla, Röya ilə oxumuşam. Sonra birdən səhhəti düzəlir və mənimlə birgə ifa etdiyini xatırlayır. Özü də onu mən dəvət etmişdim".

*İfaçı həmçinin R.Rəhimlinin "Roza musiqiçilərin pulunu ödəməyib" ittihamından da bəhs edib:* "Cəsarətli şəkildə həmin musiqiçiləri qızışdırdığını etiraf etdi. Bunu bəyəndim. Yaxşı dost idinsə, onları qızışdırmazdın. Deyərdin, dostumun cibində pul yoxdur, onun əvəzindən ödəyim. Sonra da mənə zəng edərdin maraqlanardın. Deyir, indi zəng edim musiqiçidən soruşum. Canım, mən ixtisasca rejissoram. Olmayan borcumu indi ödəmək istəyirsənsə, iki il gecikmisən. Elə öncədən bağlayardın da. O nə tamaşa, nə oyun idi? Şekspir sənin üçün ağlayır. Səmimi deyilsən. Səmimi olsan, qadınlarla dostluq etməyi bacarardın. Bir neçə sənətçi qadın səninlə dostluq edib, sonra ayrılmısınız. Yaxşı olsan, sona qədər dost olardılar. Rozaya nə olub?! Allah Rəhimə rəhmət eləsin. Rəhmət ölüyə, diriyə də oxunur. Mənim də ağlım başımdadır. İnşallah, beləcə də göylərə gedərəm. Rəhim, sən diri-diri rəhmətsən. Ağıllı ol".

**Samirə**

## Zaurun Qəbələdə villası üzə çıxdı



**Aparıcı Zaur Baxşəliyevin Qəbələdə villasının olduğu üzə çıxıb.**

"Şərq" xəbər verir ki, müğənni Təranə Qumralın qızı Qumral Qəbələdə bir bağın satış elanını paylaşıb. Sözügedən postda bu sözləri qeyd edib: "Bağ Qəbələ şəhərində Zaur Baxşəliyevin villasının yanında Mirzə Fətəli Axundov küçəsində dağlıq ərazidə yerləşir".




**Samirə**

## "Paxıllıqdan ölürlər"

Elzanın bəzi şairlərə yazığı gəlir



**Müğənni-bəstəkar Elza Seyidcahan "ATV Maqazin onlarla" proqramının "33 sual" rubrikasında qonaq olarkən şeirlərinə çəkilən videolardan söz açıb.**

"Şərq" xəbər verir ki, o, məlum görüntülərə münasibət bildirib: "O nə axındır elə?! Bunlar nə etmək istəyirlər? Bəzi şairlərə yazığım gəlir. Paxıllıqdan ölürlər. Fikir edirlər, ağlayırlar. Deyirlər, niyə bizim şeirlərimnizə video çəkmirlər. Oğlanlar mənim saç düzümüm ilə şeirlərimi oxuyurlar. Tolik də paylaşır. Bu, sevgidən irəli gəlir. Hamısı Elza aşiqi olub. Şəxsən birini sevməsəm, onu demərəm. Sevmədiyim adama tərəf baxmıram".

**Samirə**

# TƏKRAR HƏRRACLARIN KEÇİRİLMƏSİNƏ DAİR ELANLAR

Şəmkir rayon İcra Şöbəsinin 02.06.2021-ci il tarixli, 6307/2020-12 saylı sifarişi ilə, Şəmkir rayonu, Qədimqala kəndində yerləşən 1,1740 kənd təsərrüfatı təyinatlı, Şəmkir rayonu, Zəyəm qəsəbəsində yerləşən 1,0742 ha kənd təsərrüfatı təyinatlı torpaq sahəsi, Şəmkir rayonu, Zəyəm qəsəbəsində yerləşən 1,1484 ha torpaq sahəsi, Şəmkir rayonu, Zəyəm qəsəbəsində yerləşən 1,4322 ha torpaq sahəsi və Şəmkir rayonunda yerləşən 1,97 ha torpaq sahələrinə dair 18 iyun 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş ilkin hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin torpaq sahələri ilkin satış qiyməti olan (1,1740 ha torpaq sahəsi) 4.680 manatdan 10% aşağı olmaqla, yəni 4.212 (dörd min iki yüz on iki) manata; (1,0742 ha torpaq sahəsi) 5.350 manatdan 10% aşağı, yəni - 4.815 (dörd min səkkiz yüz on beş) manata; (1,1484 ha torpaq sahəsi) 5.700 manatdan 10% aşağı, yəni 5.130 (beş min bir yüz otuz) manata; (1,4322 ha torpaq sahəsi) 7.150 manatdan 10% aşağı, yəni 6.435 (altı min dörd yüz otuz beş) manata; (1,97 ha torpaq sahəsi) 15.760 manatdan 10% aşağı, yəni 14.184 (on dörd min bir yüz səksən dörd) manata təkrar açıq hərraca çıxarılmışdır.

Təkrar hərrac 05 iyul 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 5%-i, yəni (1,1740 ha torpaq sahəsi) - 210 (iki yüz on) manat; (1,0742 ha torpaq sahəsi) - 240 (iki yüz qırx); (1,1484 ha torpaq sahəsi) - 256 (iki yüz əlli altı); (1,4322 ha torpaq sahəsi) - 321 (üç yüz iyirmi bir); (1,97 ha torpaq sahəsi) - 709 (yeddi yüz doqquz) manat miqdarında beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - ilkin satış qiymətinin 1%-dən çox olmamaqla

*(Əlavə olaraq "Qeyd"ə bax).*

Bakı şəhəri Nərimanov rayon İcra Şöbəsinin 02.06.2021-ci il tarixli sifarişi ilə, "Geely MR" minik markalı, 90-DE-642 dövlət qeydiyyat nişanlı avtomobilə dair 18 iyun 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş ilkin hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin avtomobil ilkin satış qiyməti olan 3.000 (üç min) manatdan 10% aşağı olmaqla, yəni 2.700 (iki min yeddi yüz) manata təkrar açıq hərraca çıxarılmışdır.

Təkrar hərrac 05 iyul 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 10%-i, yəni (2.700) - 270 (iki yüz yetmiş) manat miqdarında beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - ilkin satış qiymətinin 1%-dən çox olmamaqla

*(Əlavə olaraq "Qeyd"ə bax).*

Bakı şəhəri Nərimanov rayon İcra Şöbəsinin 02.06.2021-ci il tarixli sifarişi ilə, "Avesta Konserni" MMC-yə məxsus Bakı şəhəri, Yasamal rayonu, 589-cu məhəllə, H.B.Zərdabi 74 ünvanında yerləşən 20 kv.m qaraj sahəsinə dair 18 iyun 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş ilkin hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin qaraj sahəsi ilkin satış qiyməti olan 20.000 (iyirmi min) manatdan 10% aşağı olmaqla, yəni 18.000 (on səkkiz min) manata təkrar açıq hərraca çıxarılmışdır.

Təkrar hərrac 05 iyul 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 5%-i, yəni (18.000) - 900 (doqquz yüz) manat miqdarında beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir. Hərrac addımı - ilkin satış qiymətinin 1%-dən çox olmamaqla

(Əlavə olaraq "Qeyd"ə bax).

**QEYD:** Yuxarıda göstərilən hərracda iştirak etmək üçün aşağıdakı sənədlər hərracın keçirilməsinə ən geci 1 (bir) iş günü qalanadək hərracın təşkilatçısına təqdim olunmalıdır. 1) Hərracda iştirak etmək üçün şəxs və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən imzalanmış (hüquqi şəxs tərəfindən əlavə olaraq möhürlə təsdiqlənmiş) ərizə (hərracın təşkilatçısı tərəfindən müəyyən edilən nümunəyə müvafiq); 2) Elanda göstərilmiş hərrac predmetinə dair behin hərracın təşkilatçısına ödənildiyini təsdiq edən sənəd; 3) Fiziki şəxslər tərəfindən şəxsiyyətini təsdiq edən sənədin surəti;

4) Hüquqi şəxslər və (və ya) fərdi sahibkarlar tərəfindən vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnamənin surəti;

5) Torpaq sahələri hərracı üzrə xarici, hüquqi və fiziki şəxslər hərraca buraxılmırlar;

6) Hərracın iştirakçılarına onların hərracda iştirakı statusunu əldə etməsini müəyyənləşdirən bilet verilir;

7) şəxs hərracda iştirak etmək üçün ərizənin qəbulu başa çatanadək təşkilatçıya yazılı formada müraciət etməklə, öz ərizəsini geri götürə bilər;

8) Ərizənin geri götürülməsi hərracın şərtlərinə uyğun olduqda, ödənilmiş beş məbləği 2 (iki) iş günü ərzində geri qaytarılır.

9) Hərracda iştirak edən, lakin onu udmayan şəxslərin behi 2 (iki) iş günü müddətində geri qaytarılır;

10) Hərracda iştirak etmək hüququ əldə etmiş şəxslərə "sifarişçi" və (ya) "təşkilatçı" tərəfindən satışa çıxarılan əmlakla tanış olmaq imkanı yaradılır;

11) Qalib gəlmiş şəxs qanunvericiliyə uyğun tərtib edilmiş protokolu hər hansı üzürlü səbəbi olmadan imzaladıqda, yaxud əmlakın dəyərini ödəməkdən imtina etdikdə verilən beh geri qaytarılmır. Hərracın qalibi hərracın yekunları barədə protokolun tərtib edildiyi vaxtdan ən geci 3 (üç) iş günü ərzində ödəməli olduğu pul vəsaitini "sifarişçi" icra qurumunun depozit hesabına köçürməlidir.

**Hərracın təşkilatçısı "Əmlak Hərrac Mərkəzi" MMC**
**Ünvan: Bakı şəhəri, Yasamal ray., Məmməd Rahim 4a.**

**Tel: (+99412) 539-47-22 ; (+99455) 745-25-56 e-mail: info@e-herrac.com**

**rəsmi internet saytı: e-herrac.com**

# Şəhid oğlunun atasına məktubu ürək dağladı







## "Canım atam, bütün uşaqlar "ata" deyərkən mən içimdə ata deyirəm"

Türkiyənin Kayseri şəhərində 6 yaşlı Ahmet Eren Altunok, "Atalar Günü"ndə anası və qardaşıyla birlikdə şəhid atası Zekeriya Altunokun məzarını ziyarət edib.

Burada yazdığı duyğu dolu məktubu oxuyan Ahmet Altunok, "Sən dünyanın ən yaxşı atasısan. Sən mənim həmişə ürəyimdəsən" deyib.

"Şərq" türk mediasına istinadən xəbər verir ki, Zekeriya Altunok 22 oktyabr 2019-cu ildə Ağrı Doğubayazıtda PKK tərəfindən təşkil edilən raketli hücum nəticəsində şəhid olub. 2 uşaq atası Altunok Kayseridə torpağa tapşırılıb.

6 yaşlı Ahmet Eren Altunok "Atalar Günü"ndə atasına yazdığı məktubda bunları qeyd edib: "Canım atam, mənə oyun oynadan atam, mənimlə güləş edən atam. Ata, səni çox sevirəm. Sən olmadan həyat çox çətindir. Sən anama kömək edərdin. Nahar edərdin, məni parka apardın və məni yelləncəkdə yelləyərdin. Canım atam, bütün uşaqlar "ata" deyərkən mən içimdə ata deyirəm. Sənsiz çox darıxıram. Məni yatırtmağını, nağıl oxumağını, hamısı üçün darıxdım. Ata, məktubumu bitirdim. Sən dünyanın ən yaxşı atasısan. Sən mənim həmişə ürəyimdəsən. Allahım, atama qovuşmaq istəyirəm. Amin".

# Su üstündə qan töküldü

## 2 nəfər ölüb, 8 nəfər yaralanıb

Babalar "bir gün su üstündə insanlar bir-birini qıracaq, qan tökəcək", deyirdi, kimsə inanmırdı. Tarlanı suvarmaq üstündə, həm də qohumlar arasında çıxan davada 2 nəfər həyatını itirib. Deməli, qlobal su böhranı getdikcə yaxınlaşır.

Hadisə Şanlıurfanın Suruç bölgəsində baş verib. "Şərq" Türkiyə mediasına istinadən bildirir ki, Suruç bölgəsində bir məhəllədə yaşayan qohumlar - Gök və Gülek ailəsi arasında əraziləri suvarma üstündə mübahisə yaranıb. Qohumlar bir-biriylə dil tapa bilmədiklərindən - suyu bölüşdürə bilmədiklərindən mübahisə getdikcə böyüyüb. Ailə üzvlərindən kimisi əlinə dəyənək, kimisi çomaq, kimisi də tapança, tüfəng alıb, nəticədə 8 nəfər yaralanıb, onlardan Hikmət Gök və Kavas Gök güllə yarası alıb. Baş verənləri kənardan izləyənlər durumu polisə xəbər verib, təcili yardım çağırıblar. Hadisə yerinə polis qüvvələri cəlb edilib. Yaralılar təcili yardımla xəstəxanaya çatdırılıb, lakin həyatlarını xilas etmək artıq mümkün olmayıb. Yaralılardan 2-nin də vəziyyətinin ağır olduğu bildirilir.




**Məlahət Rzayeva**

# 100 min izləyicisi var

## Zəhmət çəkənin hər yerdə çörəyi olacaq

*(Əvvəli səh: 16-da)*



**Bir çox insan paylaşımlarımı izlədikdən sonra kənd həyatına döndüyünü yazır. İnsanlar kəndlərinə geri dönür.**

Mənim kimi dövlətdən dəstək alıb sahibkaqlıq fəailiyyətinə başlayanlar da var", söyləyən Nurgül Akdoğan bu yaxınlarda dövlət dəstəyi ilə daha bir neşə baş qoyun aldıqlarını deyib. Həyətdə kənd həyatına uyğun heyvanlar bəslənir; qoyun, keçi, toyuq-cücə, it, pişik...

"Bir gün inəklərləyəm, bir gün qoyunlarla. Bura əsl fermadır. Gün ərzində nə iş görsəm, onu da çəkib paylaşıram. Bütün heyvanları sevirəm deyə, hər heyvan cinsindən bir deyil, bir neçəsini alırıq", deyən Nurgülün atası Cengiz Akdoğan da qızına dəstək olduğunu söyləyib: "Çalışanın, zəhmət çəkənin hər yerdə bir parça çörəyi olacaq. Mən sonunadək qızımın arxasındayam. Ona telefon da almışam, motosikleti də var. Qızım gənclərə örnəkdir".

**Məlahət Rzayeva**


**Təbrik edirik!**



**Əlini** ad günü münasibətilə ailəsi və iş yoldaşları təbrik edir, ona cansağlığı, uzun ömür arzulayırlar.

**Təbrikə Vüsal da qoşulur.**


## Hörmətli "Nar" abunəçiləri!

01.07.2021 tarixindən başlayaraq "Vətəndaş" tipli "Asan İmza" xidməti üçün aylıq abunə haqqına dəyişiklik ediləcək. Daha ətraflı məlumatı https://www.nar.az/asanimza/ səhifəsindən əldə edə bilərsiniz.

## "Nar" "Breyn Rinq" yarışının çempionu oldu

**"Breyn Rinq" yarışının 17-ci mövsümündə 16 komanda arasında gedən gərgin mübarizə nəticəsində "Nar" komandası mövsümün çempionu olub.**



Final oyunda mobil operatorun dəstək olduğu "Nar" komandası "Kapital Bank" komandası ilə mübarizədə qalib gəlib.

*Qeyd edək ki, builki mövsümündə respublikanın 6 bölgəsi və 6 ali məktəbini təmsil edən 16 seçilmiş komanda mübarizə aparıb. Televiziya tamaşaçılarının yarışlara olan marağını daha da artırmaq məqsədilə hər il olduğu kimi bu il də "Nar"ın "Twitter" səhifəsində yarış keçirilib və televiziya tamaşaçıları "Nar"dan hədiyyə qazanıblar.*


**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

-**Dizayn** (3-6ay)

-**Masaj** (3 ay)

-**Biçmə - Tikiş** (3 ay)

-**Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**



Baş redaktor: **Akif Aşırlı**

Baş redaktorun ı müavini: **Yusif Nəzərli**

Redaktor: **Ayyət Əhməd**

**Reportyorlar qrupu:** Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov, Aynurə Pənahqızı

**Texniki heyət:** Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "**Şərq**"in kompyuter mərkəzində yığılır, səhifələnir və "**Azərbaycan**" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535

**www.sherg.az**

e-mail: **sherq-1996@mail.ru**

Ünvan: Mətbuat prospekti, "**Azərbaycan**" nəşriyyatı.

**Telefon:** 447-32-41 538-44-50, internet 538-44-15,

**İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611**

SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111

Kod 200112 M/H AZ37NABZ01350100000000001944

VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1135





## Dünyanın ən möhtəşəm futbol meydançası

**Norveçin şimalında bir balıqçı şəhəri olan Henningsvaer, dünyanın ən gözəl futbol meydanlarından birinə ev sahibliyi edir.**

Təxminən iki min adamın yaşadığı Henningsvaer, stadionu ilə də dünyada ün qazanıb. Qayalıq bir adacıqda tikilən meydan dünyada futbolun oynandığı ən gözəl yerlərdən biri olaraq qəbul edilir.

## 3 əsr sonra "lənətli" gəminin qalıqları tapılıb



**1679-cu ildə ABŞ-ın Miçiqan gölündə ilk səyahətində batan və "lənətli" olaraq bilinən "Griffin" adlı gəminin qalıqları itkin düşdükdən üç əsr sonra tapılıb.**

"Şərq" xarici mətbuata istinadən xəbər verir ki, bu gəmi fransız kəşfiyyatçılar Robert Cavelier və Sieur de La Salle tərəfindən göllərdən Çin və Yaponiyaya bir yol tapmaq üçün düzəldilmişdi. Lakin gəmi ilk səyahətində yoxa çıxır. Gəminin qalıqlarını illərdir Şimali Amerikanın böyük göllərini araşdıran Steve Libert və həyat yoldaşı Kathie Libertin tapıb. Gəmi ilə bağlı ən maraqlı rəvayətlərdən birinə görə, ABŞ yerli sakinləri Griffin gəmisini lənətləyirlər. Iroquois peyğəmbəri Metiomek fransız kəşfiyyatçı və xəz taciri La Salleyə deyir: "Diqqətli olun! Bulud kimi qaranlıq sizin üzərinizdədir. Qızıldərililərin lənəti sənin və gəminin üzərindədir. Dərin sulara qərq olacaqsınız ". Sözügedən gəmi elə müəmmalı şəkildə yoxa çıxır, lakin yalnız La Salle sağ qalır. 1687-ci ildə bir gəmi səfərində La Salle öldürülür və insanlar bunu da lənətin bir hissəsi olduğunu hesab edirlər.

Aynurə

## Sahibləri tapılmır

*Zibillikdən dəyərli rəsm əsərləri çıxdı*



**Almaniyanın Bavariya əyalətindəki zibil qabında 17-ci əsrə aid iki dəyərli rəsm əsəri tapılıb.**

"Şərq" "Sabah.com"a istinadən xəbər verir ki, Köln polisi açıqlamasında rəsmlərin orijinal olduğunu, hələ sahiblərinin tapılmadığını söyləyib.

Polislər tərəfindən aparılan araşdırma nəticəsində əsərlərin hollandiyalı və italyan rəssamlara aid olduğu qənaətinə gəlinib. Qeyd edilib ki, tablolardan birinin müəllifi 1627-1678-ci illər arasında Hollandiyada yaşamış rəssam və yazıçı Samuel van Hoogstratenə məxsusdur. Rəsmdə qırmızı papaqlı bir oğlanın portreti var. Digərinin isə 1625-1700-cü illər arasında yaşamış italyan rəssam Pietro Bellottinin 1665-ci ildə çəkdiyi bir əsər olduğu bildirilir.

Yeganə



# Başını qaldıranda heyrətə düşdü

*Küçə təmizləyən kişini övladlarının hərəkəti ağlatdı*





**Atalar Günündə övladları ona sürpriz hədiyyə hazırlamışdı. Küçə təmizləyən kişininsə bundan xəbəri yoxdu, başını aşağı salıb işini görürdü. Birdən reklam lövhəsindən adını eşitdi, heyrətlə başını qaldırıb baxanda övladlarının onu ekrandan təbrik etdiklərini gördü.**

"Şərq" "Milliyet.com"a istinadən bildirir ki, hadisə İstanbulun Bağcılar meydanında yaşanıb. Bağcılar Bələdiyyəsi Təmizlik İşləri Müdürlüyündə çalışan Hüseyn Kemiksiz meydanda hərgünki işini yerinə yetirirmiş. Bu vaxt meydanda quraşdırılmış reklam lövhəsində Atalar Günü münasibətilə övladlarının onu təbrik etdiyini görüb. Hüseyn Kemiksizin 3 övladı - Zeynəb, İrəm və Mustafa atalarını təbrik ediblər.

Hüseyn Kemiksiz heyrətlə lövhəyə baxdığı anda övladları bu dəfə gözlənilmədən ortaya çıxıb atalarını qucaqlayıb, ona çiçək dəstəsi təqdim ediblər. Əlbəttə ki, ata bu xoşbəxt anlardan təsirlənib, göz yaşlarını saxlaya bilməyib. Məlum olub ki, təbriki Bələdiyyə təşkil edib, əməkdaşlarının övladlarını bu xeyirxah işə cəlb edib. Övladları təbriklərində atalarına "Ata, səninlə qürur duyuruq. Sən Türkiyənin ən yaxşı atasısan", sözlərini deyir.

Məlahət Rzayeva

## 100 min izləyicisi var

*Zəhmət çəkənin hər yerdə çörəyi olacaq*





**Dövlətin dəstəyi ilə işə başlayan 21 yaşlı Nurgül Akdoğan heyvandarlıqda tutarlı gəlir əldə edən gənc sahibkara çevrilib.**

1 il əvvəl Nurgül kənd həyatını anladan maraqlı videoları sosial şəbəkədə paylaşmağa başlayıb. Videolar böyük maraqla izlənib. Hazırda Nurgülün "Kəndçi qız Nürgül" adıyla paylaşdığı videolar 100 min izləyici toplayır.

Nürgül Akdoğan ailəsiylə birlikdə 100 böyük baş, 400 də kiçik baş heyvana sahibdirlər. Həm heyvandarlıqdan qazanc əldə edir, həm də sosial mediadakı paylaşımları Nurgülə gəlir gətirir. Nurgül Boluya bağlı Fırınlıq kəndində yaşayır. "1 ildir "YouTube"də kənd təsərrüfatı, heyvandarlıqla bağlı izahlar verir, kənd həyatını anladan videolar çəkirəm. İstəyirəm insanlar kənd həyatının bütün gözəlliklərini görsünlər. Heyvandarlıqla bağlı bilmədiklərini öyrənsinlər. Gözəl şeylər paylaşınca gözəl də qarşılıq alıram. İnsanlar kənd həyatı ilə maraqlanır, mənə suallar göndərirlər.

*(Davamı səh:15-də)*

Məlahət Rzayeva

## Baydenin iti ölüb

*Prezident və xanımı sarsılıblar*




**ABŞ Prezidenti Co Baydenin "sevgi dolu dostu" olan iti Champ şənbə günü ölüb.**

"Şərq" "Haberturk.com"a istinadən bildirir ki, Bayden və xanımı Cil Bayden itlərinin ölümündən çox sarsılıblar.

Cütlük Champ haqqında verdikləri açıqlamada bu sözləri deyib: "O, son 13 ildə bizim daimi, əziz dostumuz idi. Bütün Bayden ailəsi ona pərəstiş edirdi. Ən xoşbəxt anlarımızda və ağrılı günlərimizdə yanımızda idi. İfadə etmədiyimiz hər duyğuya qarşı həssas idi. Şirin və tərbiyəli övladımızı sevirik, həmişə onun üçün darıxacağıq".

Yeganə